QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 155 (5386) 29 **avqust** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Sosial siyasətin uğurlu nəticələri

*İlham Əliyev: "Biz Azərbaycan dövlətinin və xalqın inkişaf etməsi, normal yaşaması üçün ardıcıl tədbirlər görürük"*



Səh 2

**Mehriban Əliyeva: Mən Azərbaycanın əsas sərvətinə - xalqımıza inanıram**



3

**Seymur Orucov: "Bu gün Azərbaycan gəncliyi ölkəmizi dünyada layiqincə təmsil etməkdədir"**



5

Azərbaycanın multikulturalizm modeli öyrənilir və paylaşdırılır



7

**Ermənistan şikayətlərin sayına görə birinci yerdədir**



5

**Heydər Əliyev Mərkəzində klassik avtomobillərin yürüşü və möhtəşəm əyləncə tədbirləri keçirilib**



8

Dövlət təsisatına hücum edərək terror aktı törətməyə hazırlaşan şəxs zərərsizləşdirilib



5

10

**Ermənistanda zavodda partlayış baş verib**



5

**Qurban bayramı ilə əlaqədar dövlət baytarlıq nəzarəti gücləndirildi**



16

**Ramil Quliyev Berlində ikinci olub**



# Sosial siyasətin uğurlu nəticələri

## *İlham Əliyev: "Biz Azərbaycan dövlətinin və xalqın inkişaf etməsi, normal yaşaması üçün ardıcıl tədbirlər görürük"*



***İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Məhz bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir.***

Dövlət başçısı hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək, vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq. Demək olar ki, hər il vətəndaşların əmək haqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ əlillərinə, eyni zamanda, sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərin artırılması, sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması məqsədilə reallaşdırılan tədbirlər yoxsulluğun səviyyəsinin azaldılmasına, eləcə də, ölkənin məşğulluq strategiyasının səmərəliliyinə müsbət təsir göstərir. Məhz bunun nəticəsidir ki, son 14 ildə ölkədə işsizlik və yoxsulluq 5 faizə düşüb, 1,5 milyondan artıq yeni iş yeri açılıb, üç mindən çox məktəb, altı yüzdən çox tibb ocağı tikilib və ya əsaslı şəkildə təmir edilib.

### "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır"

Azərbaycan iqtisadiyyatında əldə olunan uğurların son nəticədə sosial ədalət prinsiplərinin möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayan dövlət başçısı İlham Əliyev sosial sahədə həyata keçirilən ciddi proqramların mahiyyətini izah edərək deyib: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Ona görə sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Bu il bu məsələlərlə bağlı ciddi addımlar atılmışdır. Beş milyondan çox insan bu il pulsuz müayinədən keçmişdir. Bilmirəm, hansı ölkədə belə bir təşəbbüs var ki, insanlar - əhalinin böyük əksəriyyəti il ərzində pulsuz müayinədən keçsin. Sosial infrastruktur obyektlərinin tikintisi aparılmışdır və aparılır. Birinci altı ayda 26 tibb müəssisəsi tikilmiş və təmir edilmişdir. İyirmidən çox modul tipli məktəb tikilmişdir. İlin sonuna qədər onların sayı 100-ə çatmalıdır. Yəni sosial infrastruktur məsələlərinin həlli daim diqqət mərkəzindədir".

Eyni zamanda, əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması tədbirləri çərçivəsində Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən, cari ilin ötən aylarında 100 yaşayış məntəqəsində modul tipli qurğuların quraşdırılması məqsədilə bütün layihələndirmə işləri başa çatdırılıb. Hazırda 47 obyekt üzrə tikinti işləri həyata keçirilir. Bu işlər tamamlandıqdan sonra, ümumilikdə 484 yaşayış məntəqəsində keyfiyyətli içməli su ilə təmin edilən əhalinin sayı 700 mini keçəcək.

Həmçinin, inşaat sektorunda böyük canlanma müşahidə olunur. Belə ki, Bakıda 100-dən çox hündürmərtəbəli bina tikilir. Qəzalı binaların yerində yeni evlər ucaldılır. Onların sayı 80-ə yaxındır. Bu, şəhərimizi daha da gözəlləşdirir və abadlaşdırır. Yararsız, qəzalı binalardan vətəndaşlar köçürülür. Müvəqqəti olaraq onlara kirayə pulu verilir. Tikiləcək yeni binalarda onlara daha da böyük ölçüdə mənzillər veriləcək. Bu, dövlət başçısının xüsusi göstərişidir.

Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq, görülən böyük quruculuq işləri vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasına, onların qayğı və problemlərinin həllinə, cəmiyyətdə mənfi halların kökünün kəsilməsinə, vətəndaşların gündəlik tələblərinin yerinə yetirilməsinə şərait yaradır.

Daha bir önəmli məqamı da xatırlatmaq yerinə düşərdi ki, hər il dövlət büdcəsinin böyük bir hissəsi, məhz sosial məsələlərə yönəldilir ki, bu da ölkəmiz üçün tamamilə məqbuldur. Bu, bir daha sübut edir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir. Bu siyasət, müasir dünya iqtisadiyyatının tələblərinə müvafiq olmaqla, ölkəmizin tərəqqisini təmin edir. Makroiqtisadi sabitliyin qorunub-saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın şaxələndirilməsi, bir sözlə, bütün sahələrdə davamlı inkişaf strategiyası uğurla həyata keçirilməkdədir. Ölkənin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Şübhəsiz, sürətli iqtisadi inkişaf vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasında əks olunur. Xüsusilə də, yoxsulluq səviyyəsinin aşağı salınması və əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən fundamental tədbirlər bu istiqamətdə qarşıya qoyulan məqsədlərin təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu siyasətin davamlı xarakter alması üçün, dövlətimiz bütün uğurlu vasitələrdən istifadə edir.

### Azərbaycanda bütün çadır şəhərcikləri ləğv olunub

Yuxarıda qeyd edilənlərlə bağlı Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirilib ki, hesabat dövründə sosialyönümlü tədbirlərin həyata keçirilməsi, onların maliyyə təminatı üzrə dövlətin siyasətinin prioritetliyi təmin edilib. Prezident İlham Əliyev deyib: "Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Əlbəttə ki, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, eyni zamanda, xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır. Azərbaycan xalqı öz gələcəyini təhlükəsizlik, əmin-amanlıq şəraitində qurur".

Ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin əsas istiqamətlərindən biri də qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlıdır. Bu təbəqədən olan insanlara sistemli və məqsədyönlü dövlət qayğısı, məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilməyə başlanıb. Bu gün isə Prezident İlham Əliyevin bu qəbildən olan insanlara xüsusi diqqət və qayğısının nəticəsidir ki, qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olan insanların həyat səviyyəsi, mənzil-məişət şəraitləri əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Ölkəmiz MDB, eləcə də, Avropa məkanında qaçqın və məcburi köçkünlərin sayına görə ilk yerlərdə qərarlaşır. Buna baxmayaraq, Azərbaycan, bu kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından, ən fəal siyasət yürüdən və yüksək nəticələr əldə edən ölkədir.

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Astara rayonunun Taxtanəkəran-Miki və Taxtanəkəran-Toradi avtomobil yollarının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, 12 min nəfər əhalinin yaşadığı 38 yaşayış məntəqəsini birləşdirən Taxtanəkəran-Miki və Taxtanəkəran-Toradi avtomobil yollarının tikintisinin başa çatdırılması məqsədilə Azərbaycanın 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,5 milyon manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın. Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabineti isə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

* * *

Prezident İlham Əliyev Natiq Əmirovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycanda dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Natiq Ərziman oğlu Əmirov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

# Mehriban Əliyeva: Mən Azərbaycanın əsas sərvətinə - xalqımıza inanıram



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva doğum günü ilə əlaqədar çoxsaylı təbrik məktubları alıb. Mehriban xanım ona səmimi sözlər ünvanlayanların, xoş arzular bildirənlərin hamısına müraciət edərək dərin minnətdarlığını ifadə edib. AZƏRTAC Mehriban xanım Əliyevanın müraciətini təqdim edir. Müraciətdə deyilir:

**"Əziz dostlar,**

Bu günlərdə mənim ünvanıma doğum günü münasibətilə təbriklər daxil olur. Mənə bizim həmvətənlərimiz, müxtəlif nəsillərdən və peşələrdən olan insanlar yazırlar. Mən, həmçinin xaricdən təbriklər alıram. Səmimi təbriklərə və uğurlar arzularına görə hamıya ürəkdən təşəkkür edirəm.

**Əziz dostlar,**

Belə bir gündə sizin səmimiyyətinizi bir daha hiss etmək mənə çox xoşdur. Mən sizin səmimi təbriklərinizdən çox təsirlənmişəm. Bu, həqiqətən ruhlandırır və müsbət, yaradıcı enerji verir. Mənim hər zaman hiss etdiyim rəğbətinizə, sevgi və dəstəyinizə görə çox sağ olun. Mən sizinlə bizim ümumi potensialımıza, insan kapitalımıza inanıram, mən Azərbaycanın əsas sərvətinə - xalqımıza inanıram.

Göstərdiyiniz diqqətə görə hər birinizə təşəkkür edirəm. Sizin hamınıza, yaxınlarınıza və sizə əziz olan insanlara cansağlığı, uğurlar, səadət və rifah, Vətənimizə isə sülh və tərəqqi arzu edirəm.

*Səmimiyyətlə,*
*Mehriban Əliyeva*

# ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan yeni həmsədri vəzifəsinin icrasına başlayıb

ABŞ Dövlət Departamentinin nümayəndəsi Hizer Noyert Endrü Şoferin ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan yeni həmsədri təyin edilməsi ilə əlaqədar avqustun 28-də bəyanatla çıxış edib.



Bəyanatda deyilir: "Cənab Şofer Avropada və beynəlxalq təşkilatlarda qazandığı böyük iş təcrübəsini özü ilə birlikdə bu vəzifəyə gətirəcək". Bəyanatda qeyd edilir ki, Birləşmiş Ştatlar əvvəlki kimi qəti şəkildə Minsk Qrupu prosesinə və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla və davamlı nizamlanmasına müvəffəq olmaqda tərəflərə kömək göstərməyə tərəfdardır. H.Noyert təsdiq edib ki, ABŞ Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn, o cümlədən Helsinki Yekun Aktının norma və prinsipləri əsasında ədalətli həllini dəstəkləyir. O deyib: "Endrü Şofer tərəflərin bu məqsədə çatmalarına kömək etməyə ümid bəsləyir".

Bəyanatda vurğulanır ki, ABŞ Endrü Şoferin təyinatı barədə Azərbaycan və Ermənistan hökumətlərini məlumatlandırıb. Endrü Şofer yeni vəzifəsinin icrasına dərhal başlayacaq.


oscow-baku.ru/news/society/rossiyskie_politiki_i_deyateli_kultury_pozdravlyayut_pervogo_vitse_prezidenta_azerbaydzhana_mekhriba/

AZN = 34.77 RUB EUR = 69.74 RUB
USD = 59.14 RUB BRENT = 52.36 USD

МОСКВА-БАКУ.RU
26 АВГУСТА 2017, СУББОТА, 13:17

Москва +19
Баку +32

НОВОСТИ ПОЛИТИКА ЭКОНОМИКА ОБЩЕСТВО КУЛЬТУРА МНЕНИЯ ВИДЕО ТУРИЗМ СПЕЦПРОЕКТЫ

Новости дня

Хакеры «слили» в Сеть сценарий заключительной серии «Игры престолов»
26 Августа, 13:06

Минобороны обнародовало часть документов о Сталинградской битве
26 Августа, 12:59

Турция стягивает дополнительные войска к границе с Сирией
26 Августа, 12:50

В Москве сегодня стартует «Ночь кино»
26 Августа, 12:23

СМИ: Братья Ротенберг стали компаньонами олигархов из Азербайджана
26 Августа, 11:55

Поиск пропавших на подтопленном руднике «Мир» прекращен
26 Августа, 11:35

Стала известна дата спуска на воду первой турецкой подводной лодки
26 Августа, 11:22

В Росмолодежи назвали

ОБЩЕСТВО /

Российские политики и деятели культуры поздравляют Первого вице-президента Азербайджана Мехрибан Алиеву

"Москва-Баку" 26.08.2017 00:01

Сегодня Первая леди - Первый вице-президент Азербайджана Мехрибан Алиева отмечает день рождения.

Российские политики, деятели культуры, известные телеведущие и общественные деятели в проекте **«Москва-Баку»** поздравляют госпожу Алиеву с этим знаменательным днем.

**Владимир Мединский, министр культуры РФ:** Мехрибан Арифовна пользуется большим уважением среди работников и деятелей культуры в России. Все знают ее

Самое популярное

Стало известно, из-за чего забили до смерти чемпиона мира по пауэрлифтингу

Эксперты: Президент России может предложить новую схему карабахского урегулирования

Азербайджанские военные примут участие в чемпионате мира по борьбе

Василий Уткин оправдался за свой комментарий про "Карабах"

Рамиль Гулиев выступит на этапе Бриллиантовой лиги

Наши видеопроекты

# Rusiyalı siyasətçilər və mədəniyyət xadimləri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı təbrik edirlər

Avqustun 26-sı Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın doğum günüdür. AZƏRTAC "Moskva-Baku.ru" informasiya portalına istinadla xəbər verir ki, rusiyalı siyasətçilər, mədəniyyət xadimləri, tanınmış teleaparıcılar və ictimai xadimlər bu əlamətdar gün münasibətilə Mehriban Əliyevanı təbrik edirlər.

Rusiyanın mədəniyyət naziri Vladimir Medinski təbrik məktubunda yazır: "Mehriban Arif qızı Rusiyada mədəniyyət işçiləri və mədəniyyət xadimləri arasında böyük hörmət qazanıb. Hamı onu təkcə Azərbaycan Prezidentinin xanımı və ölkənin ali vəzifəli şəxslərindən biri kimi deyil, həm də mədəniyyət məsələlərinə dərindən bələd olan və mədəni proseslərə təəssübkeşliklə yanaşan bir insan kimi tanıyır. Tretyakov qalereyasında "Abşeron ulduzları" sərgisində yaranmış izdiham, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi ilə bizim birgə tədbirlərimiz, Mehriban Arif qızının himayəsi altında keçirilən Rostropoviç müsabiqəsi - bütün bunlar Rusiya ilə Azərbaycan arasında mədəniyyət sahəsində yaranmış yaxşı, səmərəli və məhsuldar münasibətlər mozaikasında yalnız kiçik elementlərdir. Bu elementlər həm də Mehriban Arif qızının himayədarlığı sayəsində bu dərəcədə parlaq və uğurlu olub".

Vladimir Medinski Azərbaycanın Birinci vitse-prezidentinə bundan sonra da bu cür xoşniyyətli, məsələlərin təfərrüatına varmağı bacaran, xeyirxah, səmimi insan, Rusiyanın, Azərbaycanın, Qafqazın çoxsaylı mədəniyyət xadimlərinin əsl hamisi kimi qalmasını arzu edib.

Tanınmış teleaparıcı Evelina Zakamskaya Azərbaycanın Birinci vitse-prezidentinə ünvanlanmış təbrikində yazır: "Sizə, ilk növbədə, qadın, ana və ailə xoşbəxtliyi arzu etmək istəyirəm. Ona görə ki, qadın yalnız bu halda həqiqətən xoşbəxt olur və yalnız xoşbəxt insan ətrafdakılara nur, şəfqət və sevinc bəxş edə bilər. Siz isə bütün bunları Azərbaycan xalqı ilə bölüşürsünüz".

"Spravedlivaya Rossiya" Partiyasının lideri Sergey Mironov Azərbaycanın birinci xanımına ünvanlanmış təbrikində vurğulayır: "Mehriban Əliyeva ilə görüşmək nəsib olmuş insanların hər biri onun səmimiyyətini, erudisiyasını, problemlərin optimal həllini axtarmaq səyini qeyd edir". S.Mironov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və tutduğu yüksək vəzifədə uğurlar arzulayır.

Yazıçı Aleksandr Proxanov Mehriban Əliyevanın ağlına, incə mühakimələrinə və səmimiyyətinə heyran olduğunu bildirir. Məşhur yazıçının təbrik məktubunda deyilir: "Şübhə etmirəm ki, bu qədər yüksək dövlət vəzifəsi tutmaqla bərabər, Siz çətin vəziyyətlə üzləşmiş insanların imdadına çatmağa, sənətkarları ruhlandırmağa və həvəsləndirməyə, mübahisəli məsələləri sülhpərvərliyiniz, kompromis və təmkinliliyiniz sayəsində həll etməyə vaxt tapırsınız. Bu gün Sizə müraciət edərkən Sizin ecazkar ölkəni, Sizin laciverd dənizi, Sizin bərəkətli bağları xatırlayıram. Mən Azərbaycanı müəyyən mənada həm də öz Vətənim hesab edirəm. Mən molokanlardanam, Azərbaycandakı İvanovka kəndi mənim ulu vətənimdir. Sizə böyük uğurlar və ruh yüksəkliyi arzu etmək istəyirəm".

Müğənnilər Kristina Orbakayte və Vera Brejneva, İslam Biznes Assosiasiyasının prezidenti Marat Kabayev, teleaparıcı Angelina Vovk, Böyük Teatrın baş direktoru Vladimir Urin də Azərbaycanın Birinci vitse-prezidentinin ünvanına təbriklər göndəriblər.

Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski təbrik məktubunda Azərbaycanın birinci xanımının bioqrafiyasının parlaq səhifələrini qeyd edərək yazır: "Hazırda Mehriban Əliyeva Azərbaycanda ikinci şəxsdir. Onun üzərinə millət, xalq üçün böyük məsuliyyət düşür. Hətta güclü kişilər də həmişə bu cür yükü daşıya bilmir, xanım Əliyeva isə bu yükü özünəməxsus məharət və bacarıqla daşıyır, eyni zamanda, bu cür qayğıkeş və başqalarının ehtiyaclarına həssas insan kimi qalır. Bəlkə də bu, onun daxili qüvvəsi, gözəl ailəsi və qüsursuz bioqrafiyası, bircə dəqiqə belə boş vaxtı olmayacaq həyat sürməyə hazır olması ilə bağlıdır".

Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı təbrik edərək onun dünya arenasında Azərbaycanın mövqelərinin gücləndirilməsinə, respublikanın çoxdankı strateji tərəfdaşı olan Rusiya ilə dostluq əlaqələrinin möhkəmlənməsinə yönəlmiş çoxşaxəli fəaliyyətindən danışır. Rusiya siyasətçisinin təbrik məktubunda deyilir: "Sizin şəksiz hərtərəfli istedadınız, qeyri-adi iradəniz və heyrətamiz intuisiyanız Sizi zəmanəmizin ən erudisiyalı siyasətçilərindən birinə çevirir, istər Azərbaycanda, istərsə də bütün dünyada uğurlu qadınların çoxu Sizdən nümunə götürür".

www.sesqazeti.az
facebook Ses Media Holding

# Daim diqqət mərkəzində olan nüfuzlu ictimai-siyasi xadim

## Mehriban xanım Əliyeva öz aktiv fəaliyyəti ilə dünyada kifayət qədər tanınmış ictimai-siyasi xadim kimi daim diqqət mərkəzində olan şəxsiyyətlərdəndir

***Danılmaz həqiqətdir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə reallaşdırılan layihələr milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılmasına, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun genişləndirilməsi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına istiqamətlənib.***









Söz yox ki, Azərbaycan-UNESCO əlaqələrinin indiki səviyyəyə yüksəlməsində Mehriban xanım Əliyevanın böyük rolu mövcuddur. Xatırlatmaq yerinə düşərdi ki, Mehriban xanımın Xoşməramlı Səfir təyin olunmasından bir qədər əvvəl Qeyri-maddi mədəni irsin qorunması haqqında yeni beynəlxalq Konvensiya qəbul olunmuşdu. Onun, məhz bu sahədə Xoşməramlı Səfir missiyasını üzərinə götürməsi həm Azərbaycan xalqı, həm region, həm də bütün dünya xalqları üçün müsbət əhəmiyyətli hadisə oldu, Yeni Konvensiyanın təşviqinə əhəmiyyətli dərəcədə töhfələr verdi.

### Reallaşdırılan nəhəng layihələr

Ümumiyyətlə, Mehriban xanım Əliyeva öz aktiv fəaliyyəti ilə dünyada kifayət qədər tanınmış ictimai-siyasi xadim kimi daim diqqət mərkəzində olan şəxsiyyətlərdəndir. O, bu gün də Heydər Əliyev Fondunun prezidenti kimi ölkəmizi dünyada layiqincə təmsil edir. Heydər Əliyev Fondu tərəfindən ölkəmiz üçün böyük əhəmiyyət daşıyan "Xocalıya ədalət!" kampaniyası uzun müddətdir uğurla davam edir və qarşıya qoyulan məqsədə nail olur. Məhz bu kampaniyanın sayəsində dünya ictimaiyyəti Xocalı soyqırımı haqqında geniş məlumat əldə edib. Digər tərəfdən, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu yüzlərlə məktəblər, uşaq bağçaları, xəstəxanalar tikib və mədəniyyət abidələrini təmir etdirib.

Bununla yanaşı, Mehriban xanım ölkədə idmanın inkişafına da mühüm töhfələr verib. Məhz Mehriban xanımın sayəsində Azərbaycanda idmanın gimnastika növü xeyli inkişaf edib, ölkəmiz bu sahədə dünyada layiqincə təmsil edilir, Azərbaycan mötəbər beynəlxalq yarışlara ev sahibliyi edib və bundan sonra da edəcək. "Eurovision" adlı mahnı müsabiqəsinin, Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili, məhz Mehriban xanım Əliyevanın sayəsində mümkün olub. Bu səbəbdəndir ki, IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi də, məhz Mehriban xanımın rəhbərliyi ilə reallaşdırıldı.

Daha bir əhəmiyyətli amil, Mehriban xanım Əliyevanın humanizm prinsiplərini əsas tutaraq, məhkum ailələrinə sevinc bəxş etməsi istiqamətində atdığı addımlarıdır. Hələ millət vəkilliyi dönəmində Onun çoxsaylı təşəbbüsləri sayəsində minlərlə ailələr bir-birinə qovuşdu və bayramlarına bayram qatmış oldu. Belə ki, Mehriban Əliyevanın təşəbbüsü ilə indiyə qədər 4 amnistiya aktı qəbul olundu ki, bu da 40 mindən artıq şəxsə şamil edildi.

Bütün bunlar isə, bir daha belə qənaətə gəlməyə əsas verir ki, Mehriban xanım Əliyeva öz uğurlu fəaliyyəti ilə, nəinki Azərbaycanda, eləcə də, bütün dünyada tanınıb-seçilən ictimai-siyasi xadimlərdən biridir və Onun fəaliyyəti bir çoxlarına yalnız örnək və nümunə ola bilər.

***Rövşən NURƏDDİNOĞLU***

# ATƏT PA-nın vitse-prezidenti: Terrorizmlə mübarizədə bütün dövlətlər səylərini birləşdirməlidirlər




Xəbər verdiyimiz kimi, Astanada Elm və Ümumdünya Məsələləri üzrə 62-ci Paqouş konfransı keçirilir. Qazaxıstan parlamenti Senatının və Xarici İşlər Nazirliyinin birgə təşkil etdiyi "Yeni nüvə təhlükələri ilə üz-üzə" mövzusunda konfransda 46 ölkədən 200-ə yaxın nümayəndə iştirak edir. AZƏRTAC xəbər verir ki, konfransın plenar iclasında çıxış edən Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev bir sıra mühüm məsələlərə toxunub.

Hər il Paqouş konfranslarında vacib məsələlərin müzakirə olunduğunu bildirən Azay Quliyev bu cür tədbirlərin beynəlxalq tərəfdaşların sıx iştirakı ilə nüvə silahının yayılmasının qarşısının alınmasına, terrorla mübarizəyə və regional təhlükəsizlik problemlərinin həllinə kömək etdiyini deyib.

Deputat 62-ci Elm və Ümumdünya Məsələləri Konfransında İŞİD terror təşkilatı ilə bağlı ayrıca plenar sessiyanın keçirilməsinin qərara alınmasının təqdirəlayiq olduğunu bildirib. Deputat bu problemin üç ildən çoxdur müzakirə edildiyini, lakin İŞİD-in tamamilə məhv edilməsi üçün konkret nəticələrin olmadığını söyləyib. Azay Quliyev bu terror təşkilatı ilə bağlı məsələlərin beynəlxalq səviyyədə müzakirə edilməli olduğunu vurğulayıb. O deyib ki, ilk növbədə, bu terrorçu qrupun adından başlamaq lazımdır. Bəzən bir çox dövlətlər, xüsusilə BBC, CNN, NBC kimi beynəlxalq media qurumları İŞİD-dən danışarkən "İslam dövləti" adından istifadə edirlər. Bu, yolverilməzdir.

Dünyada baş verən son hadisələrin heç bir ölkənin terror hadisəsindən sığortalanmadığını göstərdiyini deyən deputat vurğulayıb ki, bütün ölkələr mümkün hücumların qarşısını almaq və ekstremizmə qarşı mübarizə aparmaq üçün öz individual maraqlarını kənara qoyub səylərini bir məqsəd - terrorla mübarizə üçün birləşdirməlidir.

Milli Məclisin deputatı terror təhlükəsi ilə mübarizə prosesində beynəlxalq təşkilatların rolunun da vacib olduğunu deyib. O bildirib ki, təhlükəsizlik və əməkdaşlıq təşkilatı olan ATƏT üzv dövlətlərə insan alveri, radikalizm, ekstremizm və terrorizmlə mübarizədə birgə fəaliyyət göstərmək üçün geniş imkanlar yaradır.

ATƏT Parlament Assambleyası çərçivəsində terrorla mübarizə üzrə xüsusi komitə yaradıldığını diqqətə çatdıran vitse-prezident ABŞ, Rusiya və bir çox Avropa ölkələrinin beynəlxalq terrorizmlə mübarizə sahəsində dialoq və əməkdaşlıq üçün ən yaxşı platforma olan bu komitənin fəaliyyətinə cəlb edilməsinin önəmini qeyd edib. O əlavə edib ki, bu komitə ATƏT PA-nın terrorizmlə mübarizə sahəsində səylərini yeni səviyyəyə qaldırmağa çalışacaq. Komitənin əsas məqsədləri parlamentlərarası dialoq və təcrübə mübadiləsi, eləcə də insan hüquqları prinsiplərinə tam riayət olunması şərtilə terrorizmlə mübarizə tədbirlərinin inkişafı çərçivəsində ATƏT PA-nın rolunun artırılmasıdır. Komitə bu məqsədləri həyata keçirmək üçün bütün imkanlara malikdir.

Sonra Azay Quliyev konfrans iştirakçılarının suallarını cavablandırıb və ekspertlərlə fikir mübadiləsi aparıb.

# Qurban bayramı ilə əlaqədar dövlət baytarlıq nəzarəti gücləndirildi

***Sentyabrın 1-2-də qeyd olunacaq Qurban bayramı ilə əlaqədar dövlət baytarlıq nəzarəti gücləndirilib. Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətindən (DBNX) SİA-ya verilən məlumata görə, respublikanın rayon və şəhərlərində qurbanlıq heyvanların baytarlıq-sanitariya tələblərinə cavab verməyən və ticarət üçün xüsusi ayrılmış yerlərdən kənarda satışının və kəsiminin qarşısının alınması, ətlərin baytarlıq-sanitariya ekspertizasından keçirilməsi məqsədilə əmr verilib.***

Əmrdə rayon, şəhər baytarlıq idarələrinin rəislərinə tapşırılır ki, Qurban bayramı ilə əlaqədar satış və kəsim üçün xüsusi ayrılmış yerlərdə heyvanların sağlamlığının müəyyən olunması, həmçinin baş verə biləcək təhlükəli xəstəliklərin qarşısının alınması, ət və ət məhsullarının qanunvericiliklə müəyyən edilmiş qaydada baytarlıq-sanitariya ekspertizasının aparılmasına dövlət baytarlıq nəzarətini gücləndirsinlər. Bu məqsədlə heyvan satışı və kəsimi yerlərinə baytarlıq mütəxəssisləri təhkim etsinlər. Həmçinin rayon və şəhərə satış üçün gətirilən iribuynuzlu və xırdabuynuzlu heyvanların sağlamlıqları barədə Baytarlıq Şəhadətnaməsinin olmasının müəyyənləşdirilməsi, bunun nəticəsindən asılı olaraq müvafiq tədbir görülməsi, qurbanlıq heyvanların qəbulunda, saxlanmasında və kəsilməsində baytarlıq-sanitariya qaydalarına ciddi əməl edilməsi tapşırılıb.



# Seymur Orucov: "Bu gün Azərbaycan gəncliyi ölkəmizi dünyada layiqincə təmsil etməkdədir"



"YAP Gənclər Birliyində dövlətçiliyimizi dəstəkləyən, Ulu öndər Heydər Əliyevin ideyaları və Prezident İlham Əliyevin ətrafında sıx birləşən gənclər birləşib. Bizim üçün əsas məram, yeganə amal ölkəmizin inkişafı, vətəndaşlarımızın sosial rifahının yüksəlişi, o cümlədən, ölkəmizin beynəlxalq imicinin daha da yüksəlməsi və Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllidir". Bu fikirləri YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov deyib.

S.Orucov bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev gənclərin bu arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib, hərbi potensialımız olduqca yüksək səviyyədədir.

"Vətəndaşlarımızın sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlər görülür, pensiyalar artılır, yeni iş yerləri yaradılır. Artıq bütün dünya dövlətləri ölkəmizi yaxın tərəfdaş qismində qəbul edir. Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycan mütləq üstünlüklər əldə edib. Bütün bunlar Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasi kursun uğurlarıdır. Digər tərəfdən, bu gün gənclərə münasibətdə mühüm addımlar atılır, layihələr reallaşdırılır. Bir məqamı vurğulayım ki, bu gün Azərbaycan gəncliyi ölkəmizi dünyada layiqincə təmsil etməkdədir. Dünyanın nüfuzlu ali məktəblərində minlərlə azərbaycanlı gənclər təhsil alır ki, onlar Azərbaycan həqiqətlərini təbliğ edirlər. Təbii ki, bu prosesdə dövlətimiz gənclərə güclü dəstəyi var. Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində aktiv fəaliyyəti ilə seçilir, gənclərimiz siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar"- deyə, S.Orucov vurğulayıb.

# Dövlət təsisatına hücum edərək terror aktı törətməyə hazırlaşan şəxs zərərsizləşdirilib



Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) terrorçuluğa qarşı mübarizə istiqamətində davam edən araşdırmalar zamanı ölkə hüdudlarından kənarda silahlı münaqişələr, terror aktları törədən dini ekstremist, terror təşkilatına qoşulub həmin təşkilatdan maliyyə vəsaitləri qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı Cavadov Yaşar Oktay oğlunun odlu silah və partlayıcı maddələr əldə etməsi, dövlət təsisatına hücum edərək terror aktı törətməyə hazırlıq hərəkətləri müəyyən olunub.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə 2017-ci il avqustun 27-də İsmayıllı şəhəri ərazisində həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri zamanı Yaşar Cavadov saxlanılmasına silahlı müqavimət göstərərək, xidməti vəzifələrini yerinə yetirən əməkdaşlara ictimai yerdə odlu silahdan atəş açıb və cavab tədbiri olaraq xüsusi əməliyyat qrupu tərəfindən məhv edilib. Axtarışlar zamanı xaricdə fəaliyyət göstərən terror təşkilatının maliyyələşməsi prosesinə aid, habelə iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər aşkarlanıb. Hazırda istintaq-əməliyyat tədbirləri davam edir.

# Ermənistan şikayətlərin sayına görə birinci yerdədir

Bütün sahələrdə iflasa uğrayan Ermənistanda hökm sürən qanunsuzluq mühiti narazı insanların sayını artırıb. Buna görə də işğalçı ölkə Avropa İnsan Hüquqları Məhkəməsinə göndərilən şikayətlərin sayına görə birinci yerdədir.

AZƏRTAC xəbər verir ki, Ermənistan Avropa Şurasına üzv olan dövlətlər arasında bu qurumun insan hüquqları məhkəməsinə ən çox müraciət edilən ölkədir. Bu hesabat əhalinin hər 100 min nəfərinə düşən şikayətlərin sayına görə aparılıb. Ermənistanın hüquq müdafiəçisi Vahi Qriqoryan bildirib ki, təqdim olunan statistik göstəricilər ermənilərin məhkəmə sisteminə inamsızlığı bir daha təsdiqləyib. İşğalçı ölkədə vəkillər də məhkəmədən və hakimlərdən narazıdırlar. Bu səbəbdən də hüquq müdafiəçiləri İrəvanda aksiya keçirməyə hazırlaşırlar. Onlar əsasən məhkəmə zalına girişdə üzərlərində aparılan yoxlamalara etiraz edirlər. Bu barədə vəkil Ayuk Alumyan məlumat verib. Onun sözlərinə görə, belə davranış nəinki qeyri-qanuni, həm də təhqiredicidir. Alumyan deyib ki, sonuncu dəfə məhkəmə məmurları ilə bununla bağlı mübahisəsi düşüb və o, müdafiə edəcəyi şəxsin məhkəmə iclasına buraxılmayıb. Vəkil Ermənistanda ilin əvvəlindən hüquqşünaslara qarşı görünməmiş təzyiqlər başlandığını da söyləyib.



# Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin yeni binası istifadəyə verilib



Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin yeni binası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Ali Məclisin Sədri Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: Bu gün komitə əməkdaşları üçün əlamətdar gündür. Ona görə ki, yaxşı iş şəraiti yaxşı əhval-ruhiyyə və keyfiyyətli iş deməkdir. Hər bir müstəqil ölkədə dövlət idarəetməsi müxtəlif strukturlar tərəfindən həyata keçirir. Düzgün idarəetmə isə o ölkədə mümkün olur ki, həmin ölkədə inkişaf və sabitlik təmin edilsin. Müstəqil Azərbaycan dövləti də dünya ölkələri sırasında öz layiqli yerini tutub, düzgün idarəetmə sistemi yaradılıb, sabitlik və hərtərəfli inkişaf təmin edilib. Çünki Azərbaycanda müstəqilliyin və dövlətçiliyin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub və bu gün ölkə Prezidenti bu yolu uğurla davam etdirir.

Ali Məclisin Sədri deyib: Ölkəmiz üçün vacib strukturlardan biri də Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsidir. Komitə fəaliyyətini üç istiqamətdə - standartlaşdırma, metrologiya və patent sahələri üzrə həyata keçirir. Standartlaşdırma sahəsində fəaliyyət məhsulların istehsalı, daşınması, satışı, xidmətlərin göstərilməsi zamanı standartların gözlənilməsinə dövlət nəzarətinin həyata keçirilməsindən, eləcə də məhsulların standartlara uyğunluğuna dair sertifikatların verilməsindən ibarətdir. Metrologiya sahəsində dövlət metroloji nəzarətinin həyata keçirilməsi, ölçmə vasitələrinin dövlət sınaqlarının aparılması, patent sahəsində isə əmtəə nişanları, coğrafi göstəricilər, ixtira, faydalı model, sənaye nümunələrinə patent və şəhadətnamələrin verilməsi əsas fəaliyyət istiqamətləridir.



Ali Məclisin Sədri qarşıda duran vəzifələrdən danışaraq deyib: Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi daxili bazarı qorumalı, aid təşkilatlarla birlikdə keyfiyyətsiz və ya saxtalaşdırılmış məhsulların istehsalı, satışı və idxalına yol verməməlidir. İstehsal olunan yerli məhsulların ixracını stimullaşdırmaq məqsədilə keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunluğu diqqət mərkəzində saxlanılmalı, istifadə olunan ölçmə vasitələrinin dəqiqliyinə nəzarət edilməli, metroloji qayda və normalara uyğun olmayan ölçmə vasitələrinin istismarının, istehsalının və satışının qadağan edilməsinə nail olunmalıdır. Həmçinin komitə qablaşdırılmış mallar üzərində dövlət metroloji nəzarətini təmin etməli, patent fondunun komplektləşdirilməsini, əmtəə nişanlarının, coğrafi göstəricilərin, elmi-texniki nailiyyətlərin, yeni texnologiya və avadanlıqların qeydə alınmasını, hüquqi mühafizəsi və onlardan istifadə sahəsində səlahiyyətinə aid edilmiş vəzifələrin icrasını davam etdirməlidir.





Qeyd olunub ki, sınaq laboratoriyalarının qanunvericiliyə uyğun fəaliyyət göstərmələrinə diqqət artırılmalı, məhsulların və ya xidmətlərin təhlükəsizliyi və keyfiyyəti, eləcə də ölçmələrin dəqiqliyi haqqında istehlakçıların məlumatlandırılması təmin edilməlidir. Bundan başqa, istehsal və xidmət sahələrində, iaşə obyektlərində, uşaq bağçalarında və məktəb yeməkxanalarında standartların gözlənilməsi ilə bağlı monitorinqlər davam etdirilməli, yaradılanlar qorunmalı, kollektiv həvalə olunmuş vəzifələrin icrasında səyini artırmalıdır. Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında komitə əməkdaşlarına uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Bəxtiyar İsmayılov çıxış edərək deyib ki, muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi üzrə tədbirlər uğurla həyata keçirilir. Sakinlərin keyfiyyətli məhsul və xidmətlərə çıxış və seçim imkanlarının yaxşılaşdırılmasına dair verilmiş tapşırıqlara uyğun olaraq istehsal və idxal olunan məhsulların sertifikatlaşdırılması prosesi, patentlərin beynəlxalq mühafizəsi və istehlak bazarında keyfiyyətə nəzarət işi müasir standartlara uyğun aparılır. Komitənin ixtisaslı kadr potensialının formalaşdırılması və maddi-texniki bazasının yaxşılaşdırılması da daim diqqət mərkəzindədir. Yeni inzibati binanın istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Bəxtiyar İsmayılov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq edib, fəaliyyətin səmərəli təşkili üçün daha səylə çalışacaqlarını bildirib.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, zirzəmi qatı ilə birlikdə 5 mərtəbədən ibarət olan binada 56 iş otağı, akt zalı, 2 laboratoriya, reyestr və kadastr saxlama otağı, kitabxana, arxiv, təlim-treninq otağı, ölçmə vasitələrini yoxlama otaqları, standartlar üzrə informasiya otağı, standart və patent fondu, eləcə də mətbəə və yeməkxana yerləşir. Laboratoriyalarda elektrik, təbii qaz və su sayğaclarının yoxlanılması, eləcə də təzyiq, temperatur, çəki və həcm ölçmə vasitələrinin kalibrlənməsi üzrə çoxfunksiyalı avadanlıqlar quraşdırılıb. Binada əsas və ehtiyat server, 12 dəst kompüter, 14 çap qurğusu, 2 videoproyektor və 1 elektron lövhə quraşdırılıb. Xidməti işin səmərəliliyini və operativliyini yüksəltmək üçün yeni Elektron Sənəd Dövriyyəsi Sistemi və daxili şəbəkə istifadəyə verilib. Təhlükəsizlik normalarına uyğun olaraq inzibati binanın yaxınlığında məişət qaz avadanlıqlarının sınaq laboratoriyası yaradılıb, laboratoriya yeni qaz analizatorları və qaz detektorları ilə təmin edilib. Sifarişçilərin yoxlamaya təqdim etdiyi ölçmə vasitələrinin ilkin mərhələdə saxlanılması üçün ərazidə yarımqapalı yerlər hazırlanıb, avadanlıqların binaya daşınması üçün 3 yeni forkliftlər alınıb. Binanın həyətində abadlıq işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb, 15 yerlik avtomobil dayanacağı tikilib. Ali Məclisin Sədri istehsal müəssisələrində və xidmət sahələrində maarifləndirmə və izahat işlərinin davam etdirilməsi, səmərələşdirici təkliflərin hazırlanması və patentlərin verilməsi sahəsində fəaliyyətin təşkili ilə bağlı tapşırıqlar verib.

# Azərbaycanın multikulturalizm modeli öyrənilir və paylaşdırılır




***İnsan ölkələri tanıdıqca, onun coğrafi mövqeyi, iqlimi, tarixi ilə tanış olduqca, əldə etdiyi biliyi genişlənir və həyat, dünya haqqında daha zəngin məlumat əldə edir. Müasir dövürümüzdə dünyaya qapısı açıq olan Azərbaycana dünya ölkələrindən qonaq, turist, diplomat kimi səfər edən hər kəsin düşüncəsində ölkəmiz inkişaf edən, modernləşən dövlət olmaqla yanaşı, dərin tarixi köklərə, adət-ənənələrə malik olan məkan kimi təsir bağışlayır. Hər daşında, qayasında tarixindən söz açılan bu diyarın arxitekturası, təbiəti insanların ruhunu təzələyir və ölkəmiz ətrafında fikirlərini dərinləşdirir.***

Qonaqpərvər, irqindən, dinindən asılı olmayan hər kəsə qucaq açan Azərbaycanda bütün bölgələrində fərqli dinlərə etiqad edənlərin, müxtəlif etnik qruplara mənsub insanların arasında qarşılıqlı hörmət və dialoqun olması, təbii ki, bu mühitdə ali insani dəyərlərdən qaynaqlanan faktorun olduğuna əsaslanır. Yaşadığımız sürət və informasiya əsrində ölkəmizi başqa dövlətlərlə müqayisə etsək, görərik ki, ksenofobiya, irqçilik, dini və etnik ayrı-seçkiliklə bağlı problemlər baş alıb getdiyi halda, Azərbaycan tolerant və multikultural dəyərləri ilə örnəkdir. Azərbaycanın multikulturalizm modeli bütün xalqlar arasında birgəyaşayış modelini əxz edən ən gözəl nümunədir. Odur ki, müstəqil dövlətimizə məxsus olan mədəni müxtəliflik, multikulturalizm modeli öyrənilir və paylaşdırılır.

Təbii ki, Azərbaycanda multikulturalizm yüzillər ərzində formalaşmış birgəyaşama modeli olmaqla yanaşı, həm də dövlət siyasətidir. Qeyd edək ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra milli azlıq və etnik qrupların hərtərəfli inkişafı üçün dövlət tərəfindən geniş zəmin yaradıldı. Bu gün ölkəmizdə 2246 məscidlə yanaşı, 14 kilsənin, 7 sinaqoqun fəaliyyət göstərməsi, əlbəttə ki, ölkəmizdəki mövcud olan ab-havanın təzahürüdür. UNESCO-nun "Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya qoşulan Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti, incəsənəti, adət-ənənələri və dilinin qorunub- saxlanılması üçün məqsədyönlü iş aparılır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizdə yaşayan bütün xalqları dövlətə daha möhkəm tellərlə bağlayaraq sabitliyə və inkişafa əvəzsiz töhfəsini verir.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin sərəncamları ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin "Multikulturalizm İli" elan olunması Azərbaycanın sülhə və əmin-amanlığa verdiyi daha bir töhfə oldu.

Bu gün dünyanın bir çox ölkəsində "Azərbaycan multikulturalizmi" fənni tədris olunur və Azərbaycanın tarixi, mədəniyyəti və insanları haqqında məlumatlar diqqətə çatdırılır. Ölkəmizə gələnlər, nəzəriyyə şəklində tədris edilən multikulturalizmin canlı şahidlərinə çevrilirlər. Azərbaycanın etnik palitrasını xatırladan rəngarəngləri demək olar ki, hər bir bölgədə rast gəlinir. 20-dən artıq xarici ölkədə, 28 yerli universitetdə Azərbaycan multikulturalizmin fənni tədris olunur. Azərbaycan multikulturalizmini tədris, təbliğ və təşviqi humanizm prinsiplərinin və ümumbəşəri dəyərlərin yayılmasında mühüm əhəmiyyət kəsb edir. Hazırda Almaniya, İsrail, Moldova, İtaliya, Portuqaliya və Rusiyada isə, artıq iki şəhərdə -Moskva və Yekaterinburqda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin filialları fəaliyyət göstərir. Ölkəmizdə müxtəlif dinlərə mənsub və fərqli adət-ənənələri olan xalqların nümayəndələrinin, əsrlərdir ki, mehriban və sülh şəraitində birgə yaşaması bir model kimi dünya xalqlarına təqdim olunur. Azərbaycan multikulturalizminin daha geniş miqyasda təbliği və təşviqi istiqamətində perspektiv işlər davam etdirilməkdədir.

Təsadüfi deyil ki, bu gün Azərbaycan dünyada azlıq və ya çoxluğun fərqinin hiss edilmədiyi ölkələr sırasında ilk yerlərdən birində qərarlaşıb. Ölkəmizdə xalqlar bir-biriləri ilə mehriban yaşayır və bu baxımdan, ölkəmiz dünyaya nümunədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycanda həyata keçirilən məqsədyönlü siyasət respublikamızda bütün sahələrdə inkişaf göstəriciləri ilə müşayiət olunur"



"Azərbaycanda həyata keçirilən məqsədyönlü siyasət respublikamızda bütün sahələrdə yüksək inkişaf göstəriciləri ilə müşayiət olunur". Bu fikri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Musa Quliyev deyib.

M.Quliyev bildirib ki, ölkəmizdə müşahidə olunan inkişaf həm də sosial məsələlərin həllinə əhəmiyyətli təsir edir. Onun sözlərinə görə, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır.

"Ölkəmizin iqtisadi imkanları ilə birbaşa əlaqəli olan sosial məsələlərin həlli bütün dövrlərdə olduğu kimi, bu gün də dövlətin diqqət mərkəzindədir. Azərbaycan bu gün inkişafının elə mərhələsindədir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının müxtəlif sahələrində tərəqqi və intibaha xidmət edən, hər bir vətəndaşın həyatında dəyişikliklərlə müşayiət olunan islahatları yüksək dinamizmlə gerçəkləşdirmək imkanı yaradır. Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması ölkədə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu istiqamətdə görülmüş tədbirlər sistemində ünvanlılıq prinsipinə, aztəminatlı ailələrin, ailə başçılarını itirənlərin, şəhid ailələrinin, xüsusi qayğıya ehtiyacı olanların - əlillərin, ahıl vətəndaşların və uşaqların sosial müdafiəsi sahəsində mühüm tədbirlər həyata keçirilib və bu proses davam etməkdədir"- deyə, YAP Siyasi Şurasının üzvü vurğulayıb.

# Azərbaycan və Ermənistanın dini liderləri görüşəcəklər

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə ilə Moskvada bütün ermənilərin katolikosu II Qaregin arasında görüş keçiriləcək. QMİ-dən verilən məlumata görə, görüş Moskvanın və bütün Rusiyanın patriarxı Kirillin təşkilatçılığı ilə baş tutacaq. Sentyabrın 8-də baş tutacaq görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr aparılacaq.

# Jalə Əliyeva: Türk xalqları arasında birliyin güclənməsi tarixi zərurətə çevrilib



"Türk xalqları arasında birliyin güclənməsi tarixi bir zərurətə çevrilib. Xüsusilə, dünyanın qloballaşdığı şəraitdə bu birlik öz əhəmiyyətini daha da aktuallaşdırır". Bu fikirləri Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Jalə Əliyeva deyib.J.Əliyeva bildirib ki, sovetlər birliyi süqut etdikdən sonra türkdilli dövlətlər arasında əlaqələrin genişlənməsi istiqamətində addımlar atılmağa başlayıb və bir sıra ciddi nəticələr əldə edilib. Onun fikrincə, Türkdilli Dövlətlərin Əlaqələndirmə Şurasının yaradılması da bu fəaliyyətin nəticəsidir. "Türk dövlətləri arasında daha çox Azərbaycan və Türkiyə dərin münasibətlərə malikdir. Dövlətlərimiz arasında münasibətlər dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Əlbəttə, Azərbaycanın digər türkdilli ölkələrlə yaxşı əlaqələri mövcuddur. Amma biz bütün türkdilli ölkələr arasında əlaqələrin daha da dərinləşməsinə maraqlıyıq. Bütün türk dövlətlərinin strateji müttəfiqliyə qədər yüksəlməsi önəmlidir. Nəzərə alsaq ki, Mərkəzi Asiyada yerələşən türkdilli ölkələr də təbii sərvətlərə malikdir və onlar türk birliyini gücləndirmək üçün vahid enerji layihələrini həyata keçirə bilər. Bununla da, dünyada türkdilli ölkələrdən ibarət yeni bir güc mərkəzi formalaşması reallığa çevriləcək. Hesab edirəm ki, bu hədəflərə çatmaq üçün güclü potensial mövcuddur"- deyə, deputat qeyd edib.

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Göygöldə vətəndaşlarla görüşəcək

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Göygöl şəhərində vətəndaşlarla görüşəcək. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Ramin Quluzadə avqustun 31-də saat 12:00-da Göygöl şəhərində Göygöl, Goranboy, Daşkəsən, Samux, Kəlbəcər, Xocalı rayonlarının, Gəncə və Naftalan şəhərlərinin sakinlərinə göstərilən nəqliyyat, telekommunikasiya (o cümlədən, internet, televiziya və radio yayımı) və poçt xidmətlərinin keyfiyyəti, xidmət mədəniyyəti və bu sahədə bölgələrdə əhalini maraqlandıran digər məsələlərlə bağlı vətəndaşları qəbul edəcək.

Vətəndaşlar "mincom@mincom.gov.az" elektron poçt ünvanı, 1655 "Çağrı Mərkəzi", (012) 598 38 18 nömrəli telefon vasitəsilə (regionlardan edilən zənglər pulsuzdur) əlaqə saxlayıb qəbula yazıla bilərlər. Eyni zamanda, qəbula gəlmək istəyən vətəndaşlar zərurət yaranarsa, yaşadıqları ərazinin poçt və telefon qovşaqları tərəfindən nəqliyyat vasitələri ilə təmin olunacaq. Bunun üçün vətəndaşlar Göygöl rayonunda (02220) 55013, Gəncə şəhərində (02225) 71617, Naftalan şəhərində (02235) 22106, Goranboy rayonunda (02224) 52106, Samux rayonunda (02227) 51199, Daşkəsən rayonunda (02221) 53020, Kəlbəcər rayonu üzrə (02226) 75099, Xocalı rayonu üzrə (02235) 21698 əlaqə nömrələrinə zəng edə bilərlər.



## Əvəz Zeynallının yalvarışları...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

"Xural"ın baş redaktoru Əvəz Zeynallının və digər qələmdarların "hüquq müdafiəçiləri" ilə birgə Müsavat partiyasının qərargahında "Turan" İA-nın vergilərdən yayınmış və bu səbəbdən də, istintaqa cəlb edilmiş baş redaktoru Mehman Əliyevi müdafiəyə qalxmaları, xüsusilə, bu məsələni siyasiləşdirmək cəhdləri, bir daha düşünməyə və nəticələr çıxarmağa vadar edir. Məsələn, insan düşünür ki, axı bu boyda ölkədə azad söz və ifadə azadlığı mövcud olduğu halda, bu cür qələmdarlar nəyi qoyub, nəyi deyirlər? Adamlar hələ də dərk etmirlər ki, əgər ölkədə azad söz imkanları məhdud olsaydı, onlar heç bu toplantılarını da keçirə bilməzdilər. Ancaq gəl-gör, bunlar M.Əliyevin ətrafında yeni siyasi oyunbazlıqlar belə qurduqları halda, onlara gözün üstündə qaşın var deyən oldumu? Nəyə görə, bu reallığı dərk etməyib də, vergidən yayınma halını siyasi həyasızlığın, bəlkə də sürüşkənliyin son həddi qismində siyasiləşdirməklə məşğuldurlar? Bunun səbəbləri var, əslində...Səbəblərdən biri və birincisi 2018-ci ildə keçiriləcək prezident seçkiləridir, "Turan"ın rəhbərinin həbsi isə onlara, necə deyərlər, göydəndüşmə oldu!

Gəlin, həmin o "məzlumlar" toplantısında edilən çıxışlara nəzər salaq və elə bəri başdan Ə.Zeynallının ifadələrinə diqqət yetirək. Daha dəqiq desək, Müsavat partiyasının media qurumu olan "bastainfo.com"un həmin qondarma tədbiri işıqlandırmasındakı cümləyə diqqət yetirək: "Tədbirin təşkilatçısı "Xural" qezetinin baş redaktoru, keçmiş "siyasi məhbus", jurnalist Əvəz Zeynallı toplantıda iştirak edən Mehman Əliyevsevərləri (?!-R.) birləşərək, bu çətin zamanda, birgə mübarizəyə (??!!-R.) səslədi..."

Baxın, dərhal "siyasiləşdirmə" cəhdi və "birgə mübarizə" çağırışları. Qısası, Ə.Zeynallı yenə verib "sinəsini" qabağa və əvvəlki tək aşkar siyasi bambılılıqla məşğul olmağa başlayıb. Buna başqa cür ad da vermək olmur, əslində. Daha bir niyəsini isə, səbir edib bu köşəmi axıra qədər oxuyan dəyərli oxucularım biləcək.

Hələ bu harasıdır, gözünü yenə də utanıb-qızarmadan "prezident olmağa" dikmiş Müsavatın eks-başqanı İsa Qəmbər sözügedən "məzlumlar" toplantısında deyib ki, sən demə, M.Əliyev haqqında deyilənlər "101" faiz doğruymuş. Yəni bu fərdin Azərbaycan cəmiyyəti üçün "dəyəri" daha böyük imiş...Bax, buna da deyərlər həyasızlığın bariz etalonu! Heç bordellərdəki yüzlərlə kişinin altından çıxan və yüngül həyat tərzi sürən qadınlar belə, bu cür həyasızlıqlar etmirlər ki, Ə.Zeynallı qalsın bir yana, İ.Qəmbər bunu edir. Adama deyərlər ki, ömrü boyu Azərbaycanın milli-dövlətçilik maraqlarını satan, dəfələrlə Avropada və Gürcüstanda ermənilərlə iş birliyinə gedən, sazişlər imzalayan bir kəs hansı cürətlə dilinə "Azərbaycan cəmiyyəti" ifadəsini gətirir?! Bir də ki, əgər M.Əliyev, həqiqətən də, onun dediyi kimi bir fərddirsə, onda İ.Qəmbərin bu ifadələri çölə çıxaran, onu ictimaiyyətə zorən sırıyan dilindən 101 ilan vursun!!!

Deməli, həmin bu M. Əliyev vergidən yayınmadığını sübut etmək üçün bir dənə real fakt, sübut, isbat, daha nə bilim, arqument ortaya qoya bilməyib, bunlar söhbəti "siyasi məhbus" məsələsinin üzərinə çevirməyə başlayıblar. Səbəbi yenə də 2018!

Yoxsa ki, bunların M.Əliyevin çal qaşına vurulmalarına inanmaq da çətindir...

Belə olmasaydı, vergi cinayətini gizlədib, onu "siyasi məhbus" məsələsinə, "siyasi məhbus" məsələsini də seçki faktoruna (!!!-R.) istiqamətləndirməzdilər, bu "məzlumkeş" qələmdarlar və siyasətbazlar. Soruşmaq lazımdır ki, sən M.Əliyevin "müdafiəsinə" görə bu toplantıya qatılmısan, yoxsa seçkiyə görə? M.Əliyevə görədirsə, niyə "hədəfimiz ölkədə azad seçki keçirilməsinə nail olmaqdır" kəlmələrini ortaya atıb, suyu bulandırırsan, ay ermənisifət İ.Qəmbər???

Bunun da dalınca, "beynəlxalq birliklər" və filanlar, beşməkanlar...

Beləliklə, hər şey gün kimi aydındır. Çünki saxta yolla partiyaya başqan seçilmiş Arif Hacılı da, AXCP sədri Əli Kərimli də tumanlarını başlarına çəkib, siyasi fahişəliyin aşkar tərəfini nümayiş etdiriblər. Necə deyərlər, hakimiyyəti "vurmaq" üçün əllərinə girəvə keçib. Təbii ki, naftalin deyil, aşkar nəcis qoxusu verən bu çürük müxalifət ünsürlərinin ətraflarında süni ajiotaj yaratmaq cəhdləri hər zamankı kimi puç olacaq. Hətta Ə.Zeynallının İ.Qəmbərin, A.Hacılının və Ə.Kərimlinin qarşısında diz çöküb, az qala onların ayaqqabılarının altından öpməyə hazır olduğunu "birləşin daaa, nooolar" ifadələri ilə yalvaran səs tonu da heç nəyi düzəltməyəcək. Ona görə ki, bu "məzlumkeş" siyasi klounada oyunçularının ucuz, gərəksiz, əttökən davranışları elə müxalifətin özündə də ikrahla qarşılanmaqdadır.

# Heydər Əliyev Mərkəzində klassik avtomobillərin yürüşü və möhtəşəm əyləncə tədbirləri keçirilib



***Avqustun 26-da Azərbaycan Avtomobil Federasiyasının (AAF) təşkilatçılığı ilə Bakıda klassik avtomobillərin yürüş və sərgisi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə 1980-ci ilədək istehsal olunmuş 150-dən çox klassik avtomobil iştirak edib. Bunlar yürüş üçün qeydiyyatdan keçən şəxsi avtomobillər, həmçinin Heydər Əliyev Mərkəzində nümayiş etdirilən Klassik avtomobil sərgisinin eksponatlarından ibarət nəqliyyat vasitələri olub.***

Yürüşdə Heydər Əliyev Mərkəzinin direktoru, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Azərbaycan Avtomobil Federasiyasının vitse-prezidenti, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, təhsil naziri Mikayıl Cabbarov, tanınmış mədəniyyət və incəsənət nümayəndələri iştirak ediblər.

Yürüşdə iştirak edən ən qədim avtomobil 1937-ci ildə istehsal edilən "Opel Olimp" avtomobili olub. Onun sahibi Azad Kərimov AZƏRTAC-a müsahibəsində deyib: "Klassik avtomobillərin yürüşü və sərgisi çox gözəl tədbirdir. Sanki maşınlara ikinci həyat bağışlayıblar. Bu, böyük bir bayramdır. Bu tədbirə nəvələrimlə gəlmişəm. Bu cür tədbirlər tez-tez keçirilsə, daha yaxşı olar. Çünki gələcək nəsillər bu cür maşınları görməlidir".

Sərgidə iştirak edən, şəhər sakini Fuad Məmmədovun avtomobilinin isə, necə deyərlər, "42 yaşı" var. Avtomobili 2002-ci ildə Rusiyadan gətirən F.Məmmədovun sözlərinə görə, bu nəqliyyat vasitəsi həmin vaxtdan işləyir, yeni xarab olmayıb. Hətta avtomobil 2014-cü ildə Vyanaya uzaq səyahət edib. Bakıda təşkil edilən klassik avtomobil yürüşündə ilk dəfə iştirak etdiyini deyən şəhər sakini tədbirin onda xoş təəssürat oyatdığını vurğulayıb. Müxtəlif illərin





istehsalı olan ayrı-ayrı markalı avtomobillər Bakı küçələrində nostalji hisslər yaradaraq yürüş ediblər. Klassik avtomobillər Heydər Əliyev Mərkəzinin qarşısından start götürüb və şəhərin mərkəzi küçələri ilə yürüş etdikdən sonra Mərkəzin parkında sərgilənib.

Klassik avtomobillərin yürüşü və sərgisi paytaxtımızın sakinləri ilə yanaşı, şəhərimizin qonaqlarında da unudulmaz təəssüratlar yaradıb. Rusiyadan gəlmiş Natalya Zelnurova deyib: "Bakıya qonaq gəlmişəm və gözlənilmədən bu tədbirə qatıldım. Yürüş, eləcə də







burada iştirak edən avtomobillər çox xoşumuza gəldi. Əhvali-ruhiyyə yüksəkdir. İnsanlar çox mehribandırlar. Həm bu tədbirdə, həm də ümumiyyətlə, şəhərdə çox səmimi münasibət görürük".

Yürüşdən sona Heydər Əliyev Mərkəzinin parkında, həmçinin müxtəlif yaş qrupları üçün əyləncə proqramları, çərpələng festivalı və konsert təşkil olunub.



## "Küləyin rəqsi" Beynəlxalq Çərpələng Festivalı

"Küləyin rəqsi" Beynəlxalq Çərpələng Festivalı Bakıda ilk dəfə təşkil olunub. Saat 18:00-da başlayan tədbirdə 7 ölkədən 10 rəssam iştirak edib: Nərmin Abdullayeva (Azərbaycan), Fərəc Rəhmanov (Azərbaycan), Sami Maalas (Finlandiya), Marius Abramaviçus (Litva), İlona Yanuliene (Litva), Ritums İvanovs (Latviya), Andris Vitolins (Latviya), Fedir Aleksandroviç (Ukrayna), Yesper Boysen (Danimarka), Dolqor Ser-Od (Monqolustan). Rəssamların üzərinə müxtəlif rəsmlər çəkdiyi, fərqli ölçü və formalı 50 çərpələng "küləklər şəhəri" Bakının səmasını bəzəyib və rəngarəng palitra yaradaraq tamaşaçılara unudulmaz təəssürat bəxş edib. Festival çərçivəsində həvəskar uşaqlar da səmaya 200-dək çərpələng uçurublar.

Binəqədi rayon 3 nömrəli məktəbin şagirdi Günel Hüseynli çərpələng uçurmaqdan çox xoşu gəldiyini söyləyib. "Çərpələng çox uçururam, amma bu cür böyük məkanda ilk dəfədir iştirak edirəm. Həm sevinirəm, həm də həyəcanlanıram", - deyə G.Hüseynli festivala həvəslə qatıldığını bildirib. Hüseynlilər ailəsindən Günay xanım belə bir festivalın keçirilməsindən çox məmnun qaldıqlarını vurğulayaraq deyib: "Bu cür tədbirlərdə uşaqlar çox sevinir. Onlar sevinirsə, biz də sevinirik. Festivalı təşkil edənlərə çox təşəkkür edirik".

## Əyləncə proqramları

Tədbir çərçivəsində saat 17:00-dan başlayaraq Heydər Əliyev Mərkəzinin parkında azyaşlılar üçün müxtəlif əyləncə proqramları təqdim olunub. "Sevimli bala" uşaq klubunun dəstəyi ilə qurulan oyun zonasında balacalar şar və köpük şouları, batut, sürüşkənlər, böyük ölçüdə yumşaq konstruktorlar və plastmas şahmatlar ilə çox maraqlı anlar yaşayıblar. Şəhər sakini Aytən Qasımova bu tədbir barədə elanı "Facebook"da gördüyünü qeyd edib. "Burada ab-hava çox gözəldir. İnsanın zehnini sakitləşdirən bir havadır. Uşaqlarım da çox sevindilər. Onların müxtəlif əyləncələrdə iştirakının şəklini də çəkirəm. Uşaqlara nə lazımdır? Sevinc. Bugünkü tədbir uşaqlara böyük sevinc bağışladı".

"The Entertainer" oyuncaq mağazasının iştirakı ilə hazırlanan əyləncə zonasında isə futbol, basketbol və digər oyun meydançaları qurulmuşdu. Burada uşaqlar, həmçinin masaüstü oyunlarda iştirak ediblər.

"Bolşoy prazdnik" şirkəti isə balacalar üçün sehrbazın fokus və illüziyalarını, müxtəlif şoular təqdim edib. Uşaqlar Mərkəzin parkında, həmçinin müxtəlif nağıl personajları ilə şənlənib, üzlərini arzu etdikləri rəsmlərlə boyatdırıb, karikaturalar çəkdiriblər. Onların sırasında dörd yaşlı Ruslana Şərifzadə buradan çox xoşu gəldiyini, burada özünə kəpənək rəsmini boyatdıracağını söylədi. Burada cizgi filmi qəhrəmanlarından Maşanı və Ayını gördüyünü, onlardan xoşu gəldiyini, hər ikisini çox istədiyini dedi.

Bu əyləncə növləri ilə yanaşı, saat 18:00-dan saat 20:00-dək "Azəri inciləri" qrupunun və balaca ifaçı Nuray Rəhmanovanın konserti olub. Rəqs qrupunun üzvü Aysel Eminzadə bu konsertdə həvəslə və sevinclə iştirak etdiklərini söyləyib. "Bura çox əyləncəlidir, hər şey çox maraqlıdır. Rəqsə getməyi hər kəsə tövsiyə edirəm", - deyə Aysel Eminzadə bildirib. Əyləncə proqramında Bakının müxtəlif evlərində məskunlaşan valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar da iştirak ediblər. Heydər Əliyev Fondunun daimi qayğısı ilə əhatə edilən uşaqlar fərqli əyləncələrdə asudə vaxtlarını keçirib, birlikdə rəqs ediblər. Nizami rayonundakı 1 saylı uşaq evinin sakini Maralın ad günü münasibətilə tortun kəsilməsi isə uşaqların bayram əhvalını ikiqat artırıb.

## Röya və Miri Yusifin konserti

Avqustun 26-da Heydər Əliyev Mərkəzinin parkında Əməkdar Artist Röya Ayxanın və Miri Yusifin konserti olub. Saat 20:00-da başlanan konsertdə müğənnilər tamaşaçılara maraqlı repertuar təqdim ediblər.

Qeyd edək ki, Heydər Əliyev Mərkəzi həftəsonları müxtəlif əyləncə proqramları təşkil edir. Şəhər sakinləri və qonaqların iştirak etdiyi budəfəki tədbir klassik avtomobil yürüşü və açıq havadakı sərgi, bir-birindən rəngarəng əyləncələrlə yadda qalıb.



## Radikal müxalifətin uğursuz veteranları

**RƏFİQƏ**

Bəlli olan reallıq budur ki, Azərbaycan müxalifəti yarandığı gündən etibarən mövcud iqtidarla baş-başa gəlməyi nə bacarıb, nə də ona rəqib və ya alternativ ola bilməyib. Yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət mövzusunda. Bu günə qədər müxalifət adına sıralanan bütün biabırçı, rüsvayçı məğlubiyyətlərin də səbəbi, məhz budur. Durum dünən də, bu gün də dəyişməyib, sabah da dəyişməyəcək. Çünki ünvansız yolun yolçuları olan radikal müxalifət eyniadlı estafeti bu gün də davam etdirməkdədir. Hətta Azərbaycan müxalifətinin düşərgəsində elə bir başıpozuqluq yaranıb ki, sabah onlar daha hansısa əndrəbadi qurum yaradıb orada toplaşsalar, artıq təəccüb etməyə dəyməz. Çünki adamların pafos, fantaziya imkanları da artıq tükənib və mümkün olan bütün adlardan istifadə ediblər - "SİDSUH"-dan tutmuş ta "Milli Şura"ya qədər... İndi seçkiər ərəfəsi nə edəcəklər?

**"Cırtdan" partiyaların böyük və ağır "abiləri"**

Bəli, artıq bir şey qalmayıb. Odur ki, adı ciddi olmayan qurumların fəaliyyətindən də ciddi nəsə gözləməyə dəyməz. Ayrıca düşünmək olar ki, adlarındakı hərf sayı üzvlərinin sayından daha çox olan partiyalar özlərini qarşıdakı prezident seçkisi ərəfəsi, növbəti dəfə biabır etməsələr, daha yaxşı olar. AXCP, Müsavat, VİP, AMDP, ADP, "Ümid", KXCP, Ədalət, VHP, AzDP, VAMP, AXP, eləcə də, adlarını sadalamadığımız digər bənzər partiyalar özlərini "cırtdan" partiyaların böyük və ağır "abiləri" hesab edirlər. Prosesə bu qədər tez qoşulmağı da olmayan reputasiyalarına sığışdırmırlar, vəssalam. Səbəb yalnız budur?

**Qoca, naftalin iyi vermiş müxalifət veteranları...**

Səbəb çoxdur. Məsələn, Müsavatın sabiq başqanı İsa Qəmbərin dərdi itirmiş olduğu başqanlıq statusunu kompensasiya etməkdir. Belə ki, seçkiərəfəsi hansısa qurumu və təsisatı yaradıb öz qüdrətini göstərməyə çalışır. Eyni zamanda, qarşı tərəfə "mən də varam" mesajını vermək istəyir.

Əli Kərimli isə "Milli Şura"nı əlində alət edib cibini güdməklə, pulunu qazanmaqla məşğuldur. Yəni bunların yönümləri, tam fərqli olsa da, bənzərlikləri də mövcuddur.

Daha bir fakt isə, budur ki, hər ikisi bir-birinə uzun illərdən bəri patoloji nifrət bəsləyir. Ona görə də, məqsəd və amal, hər nə olursa-olsun, məqamı gələndə, fürsət düşəndə, öz zəhərlərini tökəcəklər, nifrətlərini büruzə verəcəklər. Bilirlər ki, seçki söhbəti hər iki siyasətçi üçün çoxdan bitmiş mövzudur. Çünki İsa Qəmbər və Əli Kərimli radikal müxalifətin qələbə görməyən uğursuz "veteranlarıdırlar".

# YAP Qaradağ rayon təşkilatı uğurlu fəaliyyətini davam etdirir

*Qaradağ rayon təşkilatı Yeni Azərbaycan Partiyasının "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC ərazi ilk təşkilatına yeni üzvlərin qəbulu keçirilib*





Dünən Qaradağ rayon təşkilatı Yeni Azərbaycan Partiyasının "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC ərazi ilk təşkilatına yeni üzvlərin qəbulu keçirilib. Tədbirdə çıxış edən ASC-nin idarə heyətinin sədr müavini Xaliq Məmmədov bir müddət əvvəl ərazi təşkilatının yaradıldığını və təşkilati işlərin sürətlə həyata keçirildiyini bildirib. O, qeyd edib ki, digər ərazi ilk təşkilatlarında olduğu kimi, burada da ölkənin əhəmiyyətli siyasi-ictimai hadisələrində fəaliyyət göstərən partiya üzvləri öz aktivlikləri ilə töhfələrini vermiş olacaqlar.

YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov isə çıxışında partiyanın keçdiyi zəngin siyasi fəaliyyətdən danışıb və Azərbaycannın çağdaş tarixində oynadığı roldan bəhs edib. Onun sözlərinə görə, hər bir YAP üzvü Ulu Öndər Heydər Əliyev ideologiyasının həyata keçirilməsində yorulmadan, əzmlə çalışmalı, qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gəlməlidir.

Tədbirin sonunda partiya üzvlərinə vəsiqələr təqdim olunub. Vəsiqələri "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin idarə heyətinin sədri Əbülfət Qocayev, millət vəkili Aydın Hüseynov, sədr müavinləri Xaliq Məmmədov və Elşən Əsədov təqdim ediblər.

**RÖVŞƏN**

# Mübariz Əhmədoğlu: "Hoqland ermənilərin bütün arzularını puça çıxardı"




ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqland Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün nəzərdə tutulmuş "çərçivə sazişinin" altı maddəsini açıqladı. Açıqlanan prinsiplərdə Dağlıq Qarabağın danışıqlar prosesində tərəf kimi iştirakına dair heç bir eyham yoxdur. Bütün hallarda iki tərəfdən söhbət gedir. Bunu Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri, politoloq Mübariz Əhmədoğlu ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqlandın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı açıqlamasını şərh edərkən bildirib: "Dağlıq Qarabağ xalqı", "Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə prinsipi", "Referendum" kimi terminlər istifadə olunmur. Rəsmi Yerevan bu tezisləri tez-tez gündəliyə gətirirdi və Dağlıq Qarabağ tənzimlənməsinin bu prinsiplər əsasında reallaşacağının sənəddə yazıldığını bildirirdi.

Danışıqlar stolunun üstündə olan sənəd yalnız Yenilənmiş Madrid Prinsipləri əsasında hazırlanmış sənəddir. Bununla R.Hoqland Kazan sənədinin danışıqlar masasında olduğunu deyən Ermənistan prezidenti Serj Sarkisyanın daha bir yalanını ifşa etdi. Dağlıq Qarabağ münaqişəsi 1987-ci ildə başlayıb. Təxminən üç aydan sonra Dağlıq Qarabağda ilk mitinqin keçirilməsindən 30 il ötəcək. Bu müddət ərzində Ermənistanın başında duranlar dünya erməniliyini, bütün dünyanı aldadaraq Dağlıq Qarabağ münaqişəsinə külli miqdarda maliyyə və geosiyasi resursları xərcləyiblər. Hal-hazırda Ermənistan borc içindədir, heç bir müttəfiqi yoxdur.

Diasporla Ermənistan arasında uçurum getdikcə dərinləşir. Ermənistanın Dağlıq Qarabağ məsələsində əldə etdiyi yalnız "müvəqqəti status"dur. Azərbaycanlılar Dağlıq Qarabağa, hətta Ermənistanın özünə qayıdır".

Politoloqun fikrincə, rəsmi Yerevan dünya erməniliyini də öz yalanlarına inandıra bilibmiş: "ABŞ ermənilərinin Milli Komitəsinin və kolumnist Areq Qalstyanın açıqlamaları bunu nümayiş etdirir. R.Hoqlandın açıqladığı variant Azərbaycanın maraqlarına zidd olmasa da, o qədər də uyğun deyil. Azərbaycanın maraqlarına ən yaxı cavab verən variant Yenilənmiş Madrid Prinsipləridir. 2009-cu il iyulun 10-da İtaliyanın Akvil şəhərində üç həmsədr ölkə prezidentləri tərəfindən imzalanana bu sənədin birinci maddəsində Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycana qaytarılması nəzərdə tutulur".

Mübariz Əhmədoğlunun sözlərinə görə, indi Hoqlandın ortalığa qoyduğu bu variant özündən əvvəlki həmsədr C.Uorlikin hazırladığı variantdır: "Uorlik variantında statusun müəyyən olunmasını ərazilərin qaytarılmasından əvvələ keçirmişdi. Hoqlandın variantında hətta Dağlıq Qarabağa müvəqqəti statusun verilməsi də ərazilərin qaytarılmasından önə keçirilib.

Dağlıq Qarabağa müvəqqəti statusun verilməsində təhlükəli heç nə yoxdur. Çünki o yalnız ATƏT-də qeydə alınacaq və müvəqqəti statusun əsas məqsədi Dağlıq Qarabağ azərbaycanlılarının Dağlıq Qarabağa qayıtmasına şərait yaratmaqdır. Bu halda kompromis variantı əldə etmək daha asandır: Hoqlandın təklif etdiyi variantda ikinci və üçüncü maddələrin yerini dəyişmək. Birinci addım olaraq Dağlıq Qarabağın yekun statusunun müəyyənləşməsi prinsiplərini hər iki tərəfin iştirakı ilə kağız üzərində işlənib hazırlanır. İkinci addım Dağlıq Qarabağ ətrafındakı bütün ərazilər Azərbaycana qaytarılır. Üçüncü addım kimi isə Qarabağa müvəqqəti status verilir.

Dağlıq Qarabağdan Ermənistana gedən yol və ya dəhliz adı ilə Laçını Azərbaycanın 7 rayonu sırasından çıxarmaq təbii ki, alınmayacaq. Ən azı S.Sarkisyan ondan vacib məsələlər uğrunda mübarizəni uduzub.

Perspektiv: Azərbaycan getdikcə hərtərəfli güclənir; əhalisinin sayı artır. Ermənistan iqtisadi cəhətdən zəifləyir, miqrasiya prosesləri kifayət qədər dərin demoqrafik böhrana çevrilib. Ermənistanın güclənərək Azərbaycana çatacağını düşünmək yalnız ermənilərə bəlli olan məntiqdir".

# "Zaman və məkan" adlı müsabiqə keçiriləcək

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "Zaman və məkan" adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

# "YARAT"da "Valya" filmi nümayiş etdiriləcək

Avqustun 29-da "YARAT" Müasir İncəsənət Mərkəzində rejissor Aleksandra Brodskinin "Valya" filmi nümayiş etdiriləcək. AZƏRTAC xəbər verir ki, xronometrajı 18 dəqiqə olan ekran əsəri Rusiyanın ucqar və dağılmış kəndində yaşayan 65 yaşlı Valya haqqındadır. Onun həyatı işə gedib-gəlməkdən və alkoqoldan əziyyət çəkən oğlu Petyaya, habelə yeniyetmə nəvəsi Dimaya qulluq etməkdən ibarətdir. Valyanın gənclik dostu Qrişanın kəndə gəlişi xanım qəhrəmana ötən günləri, həyatında olan xoşbəxt anları xatırladır. Filmin nümayişinə hər kəs qatıla bilər.

# Ermənistanda zavodda partlayış baş verib

Ermənistanda zavodda partlayış baş verib. SİA xəbər verir ki, Ermənistan Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumata görə, dünən saat 13:10 radələrində İrəvan şəhəri Şenqavit inzibati rayonunda "Nairid-1" zavodunun anbarında partlayış baş verib. Partlayış böyük yanğına səbəb olub. Yanğının mürəkkəbliyi nəzərə alınmaqla hadisə yerinə 6 yanğınsöndürmə qrupu göndərilib. Hadisə yerinə çox sayda xilasetmə, polis, yanğınsöndürmə və İrəvanın 1-03 saylı təcili yardım briqadaları göndərilib.



# Qəbul imtahanlarında 60 şəkili gənc 600-dən yuxarı bal toplayıb

Bu il ali məktəblərə daxil olmaq üçün sənəd vermiş 1090 şəkili məzundan 674-ü tələbə adını qazanıb. Məzunlardan 145-ü 500-dən, 60-ı isə 600-dən yuxarı bal toplayıb. Bu barədə AZƏRTAC-a Şəki Şəhər Təhsil Şöbəsindən məlumat verilib. Builki qəbul imtahanlarında Şəki şəhər 18 saylı tam orta məktəbin məzunu Əfsanə Rəsulova rayon üzrə hamıdan çox bal (685) toplayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olunub. Şəhər 19 saylı tam orta məktəbin məzunu Qönçə Muradlı 684 balla Azərbaycan Dövlət İqtisad Universitetinə, 10 saylı tam orta məktəbin məzunu Səfurə Eminova isə 681 balla Azərbaycan Tibb Universitetinə daxil olub.

# Sarkisyan xalqın məngənəsində

## *Ölkədə baş qaldıran etiraz dalğası getdikcə genişlənir*

***Artıq avqust ayının 18-dən başlayaraq, Yerevenda baş verən xalqın kütləvi narazılığı, mitinqlər və etiraz yürüşləri getdikcə digər şəhərləri də bürüyüb. Artıq müxalifət partiyaları da, bir araya gələrək, Sarkisyan rejimini devirmək istiqamətində öz aralarında məsləhətləşmələr aparırlar. Yerevanın "Azadlıq" meydanında səsləndirilən tələb isə budur - Serj Sarkisyan dərhal istefaya getməli, Qarabağ klanından olan quldur dövlət adamları da onunla birgə öz istefalarını reallaşdırmalıdırlar. Artıq birləşmiş müxalifət liderləri də bəyan etməkdədirlər ki, xalq Sarkisyan hakimiyyətinin vədlərinə qətiyyən inanmır.***







**Levon Ter-Petrosyan: "Oğrunu oğru, rüşvətxoru rüşvətxor, qatilləri isə qatil kimi çağıracam"**

Mitinqdə çıxış edən Ermənistan Milli Konqresinin rəhbəri, eks-prezident Levon Ter-Petrosyan deyib ki, artıq ölkədə müxalifət hərəkatı ümumxalq hərəkatına çevrilib: "Sarkisyan öz zənnində aldanıb. Erməni xalqı işsizlikdən xarici ölkələrə gedib orada yaşamaqdan və son dərəcə yoxsullaşmaqdan bezib".

Ter-Petrosyan öz çıxışında onu da bildirib ki, nə 2008-ci ildə, nə də 2013-cü ildə Sarkisyan legitim olaraq seçilməyib: "O, hakimiyyəti, prezident kreslosunu güc yolu ilə, vətəndaşların qanını tökməklə əldə edib. Bu gün Ermənistanın parlamenti də legitim hesab edilə bilməz. Çünki orada böyük çoxluq quldur hakimiyyəti təmsilçilərindəndir. Mən hər şeyi öz adı ilə çağıracam. Oğrunu oğru, rüşvətxoru rüşvətxor, qatilləri isə qatil kimi çağıracam".

Sarkisyan düşdüyü vəziyyətdən çıxa bilmir

Ermənistanda hadisələrin bu məcrada baş verməsi ilə bağlı Sarkisyan hökuməti lazımi addımlar ata bilmir. Erməni saytlarının verdiyi məlumatlarda göstərilir ki, vəziyyət getdikcə daha da pisləşir. İnsanların ölkəni tərk etmələrinə səbəb isə, əsasən, işsizlik deyil, həm korrupsiya və rüşvət hallarının durmadan artması, eləcə də, idarəçilikdə süründürməçilik, ictimai, sosial və mənəvi problemlərlə yanaşı, Ermənistan ordusunda ruh düşkünlüyü müşahidə olunur. Bu isə, onun prezident kreslosuna əlvida deməsini şərtləndirir.

Ekspertlər hesab edirlər ki, ölkə iqtisadiyyatının istisnasız olaraq bütün sahələrindəki inhisarlar ləğv edilməyincə, yüksək çinli dövlət məmurlarının iri biznesləri dayandırılmayınca, rüşvətxorluq və korrupsiyaya son qoyularaq qanunların işləkliyi təmin olunmayınca vətəndaşların tələblərinin heç biri yerinə yetirilməyəcək. Sarkisyan hökuməti elə çıxılmaz durumdadır ki, Kremlin çaldığı hər havaya oynamaq məcburiyyətindədir. Hazırda o, Rusiyanın əmrlərini yerinə yetirir. Hətta vəziyyət o yerə çatıb ki, Ermənistanda böyük bir vətəndaş müharibəsi də baş verə bilər.

**Artsvik Minasyan: "Serj Sarkisyanın yarıtmaz siyasəti Ermənistanda bütün sahələrdə xaotik durum yaşdıb"**

Ölkədə yaranmış vəziyyətlə bağlı Ermənistanın "Daşnaksütyun" Partiyasının fraksiyasından olan deputat Artsvik Minasyan "Novosti Armenii" saytına verdiyi açıqlamasında bildirib ki, Ermənistan hökumətinin dəqiq iqtisadi siyasəti yoxdur: "İşğalçı ölkəyə rəhbərlik edən Serj Sarkisyan və komandasının həyata keçirdiyi irrasional və yarıtmaz siyasət nəticəsində Ermənistanda, demək olar ki, bütün sahələrdə xaotik durum yaşanır. Həmçinin, hökumətin yanaşmaları təsadüfi, situativdir - onları nə sosialist, nə liberal, nə də ki, bazar yanaşması adlandırmaq olar. Çünki iqtisadi siyasətdə dəyərlər sistemi yoxdur".

Artsvik Minasyan onu da bildirib ki, hökm sürən iqtisadi böhran total tənəzzül meyillərini kəskinləşdirməklə yanaşı, hakimiyyətlə xalq arasındakı uçurumu daha da dərinləşdirib: "Əlbəttə ki, bütün bunların əsasında hakimiyyətdə olan rejimin istinad etdiyi daxili və xarici siyasət kursu dayanır. Bir çox ekspertlər Ermənistan daxilindəki dərin kataklizmləri ölkənin iqtisadi tənəzzülü ilə əlaqələndirirlər. Dərin iqtisadi böhranın səbəbi qismində isə, bu ölkənin həyata keçirdiyi təcavüzkar, işğalçı və irrasional xarici siyasət kursu səciyyələndirilir. Belə ki, Yerevanın reallaşdırdığı aqressiv, təcavüzkar xarici siyasət bu ölkəni regional miqyasda təcrid durumuna salıb. Bunun fonunda isə, heç bir regional layihədə təmsil olunmayan Ermənistan daxili və xarici siyasət nöqteyi-nəzərindən, sözün əsl mənasında, fiaskoya uğrayıb".

Erməni siyasətçiləri bildirilər ki, son vaxtlar Sarkisyanın ağılsız və düşünülməmiş bəyanatlarla çıxış etməsi onun dövlət xadiminin nitqindən çox, hansısa cinayətkar qruplaşmasının komandirinin təhdidlərinə bənzəyir. Erməni eksperti Ruben Barentsin sözlərinə görə, son zamanlar Ermənistanda ictimai-siyasi vəziyyətdən narazı qalan kütlə ardıcıl aksiyalar keçirir: "Keçmiş döyüşçülərin aksiyasında isə hakimiyyətə qarşı daha sərt ittihamlar ünvanlanıb. Onlar mövcud iqtidarın yarıtmaz siyasətindən cana doyduqlarını bildirərək, rəhbərliyin istefasını tələb edirlər. Sarkisyan rejiminin bütün təzyiqlərinə, polis və hərbçilərdən yararlanaraq, narazı kütləyə divan tutmasına, ölkədə mütilik və hakimiyyətin qərarlarına sözsüz itaət mühiti yaratmağa yönəlmiş səylərinə rəğmən ölkənin ictimai-siyasi diskursu xofdan azad olmaqdadır. Bütün bunlar Sarkisyandan cəmiyyətə qarşı daha effektiv təbliğat vasitələrini, manipulyasiya texnologiyalarını işə salmağı tələb edərkən, digər tərəfdən, hər şey müvəqqəti təsir bağışlayır".

Erməni eksperlər bildirirlər ki, belə səviyyəsiz düşüncəli prezidentin hakimiyyətdə qalmasını erməni xalqı heç vaxt istəməyəcək, bunun çıxış yolu başı bədənində ikən istefa verib ölkəni tərk etməsidir. Beləliklə, Ermənistan dövləti, hökuməti və vətəndaşları anlamalıdırlar ki, Azərbaycanın Dağlıq Qarabağa təklif etdiyi yüksək muxtariyyat statusu ilə razılaşıb münaqişəni həll etmədikləri müddətdə iqtisadi inkişafa, siyasi sabitliyə və təhlükəsizlik problemlərinin həllinə fürsət tapmayacaqlar. Ermənistan prezidenti Sarkisyan sağlam məntiqlə düşünməyə məcburdur, əgər düşünməyə qadirdisə, sadəcə, bundan başqa yolu qalmayıb. Erməni xalqı Ermənistanın faşist rəhbərliyinin ölkəni uçuruma aparmaqdan, korrupsioner rəhbərlikdən öz canını qurtarmaq üçün Sarkisyanın istefasında israrlı olmalıdır.





**A.SƏMƏDOVA**

# Azərbaycan-Türkiyə qardaşlığı düşmənlərin bütün cəhdlərini iflasa uğradır

## *Sərhədlərin açılması ilə bağlı absurd iddianın ortaya atılması Ermənistanın çıxılmaz duruma düşdüyündən xəbər verir*

***Son hadisələrin təhlili onu göstərir ki, bəzi qüvvələr Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının daha da inkişaf etməsindən ciddi narahat olmaqdadırlar. Türkiyənin Rusiya ilə yaxınlaşması qardaş ölkə ilə Ermənistanın sərhədlərinin açılması kimi absurd fikrin meydana çıxması bunu bir daha isbatlayır. Belə ki, Türkiyənin iqtisadiyyat naziri Nihat Zeybekçi ölkəsinin Avrasiya İqtisadi Birliyi ilə anlaşma imzalamaq niyyətində olduğunu deyib. O bildirib ki, Ankara AİB-lə gömrük anlaşmasını imzalamaq barədə təklif alıb.***

Qeyd edək ki, AİB-də işğalçı Ermənistan da təmsil olunduğundan, bəzi şərhçilər bunun Ermənistanla sərhədlərin açılması üçün yeni təşəbbüslərə səbəb ola biləcəyini qeyd edirlər. Hətta Ermənistan Xarici İşlər Nazirliyi bəyan edib ki, Türkiyənin AİB ilə anlaşma imzalaması üçün qurumun Yerevanın razılığına ehtiyacı var. Ermənistan mediası da iddia edir ki, rəsmi Yerevan Türkiyə qarşısında sərhədlərin ön şərt qoyulmadan açılması şərtini irəli sürə bilər.

Onu da bildirək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın yaxın günlərdə ölkəmizə gerçəkləşdirəcəyi səfərin Azərbaycan-Türkiyə münasibətlərinə yeni təkan verəcəyi şübhəsizdir. Çünki geosiyasi maraqların fövqündə olan Azərbaycan-Türkiyə münasibətlərinin xarakterini yalnız iqtisadi-siyasi əlaqələrin yüksək səviyyədə olması müəyyən etmir, eyni zamanda, xalqlarımızı ortaq din, mədəniyyət, dil və əsassız iddialara qarşı müştərək mübarizə tarixi birləşdirir. Ona görə də, Ermənistan işğal etdiyi Azərbacan ərazilərini azad etməyənə qədər Türkiyə-Ermənistan sərhədlərinin açılması üçün göstərilən təşəbbüslərin səmərə verməyəcəyi dəfələrlə təsdiq edilib.

Bu mənada, hələ 2009-cu ildə imzalanmış Türkiyə-Ermənistan sərhədlərinin açılmasına dair Sürix protokollarının icra edilməməsinin iki əsas səbəbi var idi ki, bu da Azərbaycan və Türkiyə ictimaiyyətlərinin reaksiyaları idi. Protokolların imzalanma səbəbləri də bəlli idi. Türkiyənin Avropa İttifaqına üzv qəbul edilməsi yolunda rəsmən açıqlanmayan əsas şərtlərdən biri Ermənistanla münasibətlərin normallaşdırılması və sərhədlərin açılması idi. Lakin 2009-cu il mayın 13-də o zaman Türkiyənin Baş naziri olan Rəcəb Tayyib Ərdoğan Bakıya səfəri zamanı Milli Məclisdəki çıxışında verdiyi bəyanat mövcud şərtlər altında - Dağlıq Qarabağda işğal bitmədən - Türkiyə-Ermənistan sərhədlərinin açılmayacağanı göstərdi.

Ermənistanın Türkiyə ilə sərhədlərinin açılmasında marağı ondadır ki, 2016-cı ilin statistikasına görə, qlobal maliyyə böhranından ən az zərər çəkən və iqtisadiyyatını qoruyan Türkiyədə iqtisadi artım davamlıdır və belə bir nəhəng ölkə ilə sərhədlərin bağlı qalması Ermənistanın iflasını hər il daha da yaxınlaşdırır. O cümlədən, Azərbaycanın Qafqazda sahiblik etdiyi nəhəng transmilli layihələrdən kənarda qalması Ermənistanın tam inkişafsızlığının və dünyaya qapalılığının təsdiqidir. Həmçinin, Türkiyənin də Ermənistanla sərhədləri açması prinsipcə qardaş ölkənin iqtisadi maraqlarına cavab verir və Türkiyə qonşuluqda yeni bir bazar qazanmış olur. Lakin Ermənistanın şovinist və təcavüzkar siyasətinin dövlət tərəfindən dəstəklənməsi onun Türkiyə və Azərbaycanla iqtisadi əməkdaşlığını sonsuzluğa qədər itirir.

Ümumiyyətlə, iki ölkənin bölgədəki güc birliyi təcavüzkar Ermənistanın və onun havadarlarının bölgəni yeni münaqişə ocaqlarına çevirmək planlarına sipər olur. Digər tərəfdən, Türkiyəyə və Azərbaycana qarşı düşmənçilikdən qaynaqlanan Ermənistan xarici siyasətində bu iki qardaş ölkənin birliyinə qarşı həmişə ideoloji təxribatlar həyata keçirilib, lakin alınmayıb. Ona görə ki, Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "biz bir millət, iki dövlətik".




Bir məqamı qeyd edək ki, Azərbaycan dövləti də öz qardaşlıq missiyasını Türkiyədən heç vaxt əsirgəməyib. Xüsusən, ölkəmiz bölgənin ən böyük transmilli layihələrini həyata keçirərkən, ilk növbədə, öz milli maraqları ilə bərabər, Türkiyə dövlətinin maraqlarını da qorumağa çalışıb. Bu, xüsusən, reallaşan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, eyni zamanda, "Cənub Qaz Dəhlizi", TANAP, TAP kimi layihələrdir. Məhz həmin regional layihələrin reallaşması nəticəsində, qardaş Türkiyə bölgədə təsir imkanlarını artıra bilib və iqtisadiyyatında yeni inkişaf mərhələsi qazanıb.

Bir sözlə, Azərbaycan-Türkiyə qardaşlığı düşmənlərin bütün cəhdlərini iflasa uğradır. Sərhədlərin açılması ilə bağlı absurd iddianın ortaya atılması Ermənistanın çıxılmaz duruma düşdüyündən xəbər verir.

***"Səs" Analitik Qrupu***

# Leyla Yunusun nəyinə etibar etmək olar?

## *Vətən və dövlət xaininə, hətta avropalılar belə inanmır*

***İstənilən ölkənin daxilində müxalif ruhlu insanlar, hakimiyyətin yürütdüyü siyasətə və ya qəbul etdiyi qərarlara qarşı bəzən barışmaz, bəzən də liberal mövqe tutan insanlar olur. Bu, normaldır və fərqli insanların müxtəlif fikirləri təbiidir. Amma fikir müxtəlifliyi, fərqliliyi və müxalifliyi adı ilə ölkənin maraqlarına, vətəndaşların mənafelərinə zərbələr vurmaq, hüquqların qorunduğu iddia edildiyi insanların haqlarını oğurlamaq və onların adından siyasi alver aparmaq - siyasi gigiyena baxımından çirkin və natəmiz əməldir.***

### Leyla və Arif Yunusların xəyanətləri unudulmayıb

Bəlli olduğu kimi, "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri L.Yunusun əri Arif Yunus ötən il noyabrın 12-də məhkəmənin qərarı ilə azad edilib. Daha dəqiq desək, ondan başqa yerə getməməsi barədə iltizam alınıb və azadlığa buraxılıb. Onu da qeyd edək ki, məhkəmənin Leyla Yunus barəsində çıxartdığı humanist qərar, ilk növbədə, onun sağlıq durumu ilə əlaqələndirilir.

Lakin bu humanistliyin qarşısında A.Yunusun yenə də öz çirkin əməllərindən əl çəkməməsi, bir daha onların nə qədər rəzil və həyasız olduqlarını göstərir. Elə bu günlərdə ayrı-ayrı saytlarda din pərdəsi altında terrorçu "Müsəlman Hərəkatı" Birliyi təşkilatının sədri Taleh Bağırzadəyə arxa çıxmasına hiddətlənə bilmirsən. Belə ki, Azərbaycanda məlum xəyanətlərinin hesabını tam şəkildə ödəməmiş, məhz ölkə rəhbərliyinin humanistliyi sayəsində azadlığa çıxan və Bakı Apellyasiya Məhkəməsində Leyla Yunus və həyat yoldaşı Arif Yunusun barəsində çıxarılmış hökmdən verilmiş şikayət üzrə məhkəmə prosesində iştirak etmədiyi halda, bir də pozucu əməllərini sifarişlə həyata keçirən şeytan cildində olan Taleh Bağırzadənin müdafiəsinə qalxması heç də təəccüb doğurmadı. Çünki hər ikisi şeytanla belə iş birliyi quranlardır. Ancaq T.Bağırzadə kimi din dəllallarını müdafiə edən L.Yunus kimilər bilməlidir ki, cinayətkar törətdiyi cinayət əməllərinə görə cəzasını çəkməlidir.



### Siyavuş Novruzov: "Avropa İttifaqı da başa düşür ki, Leyla Yunus yararlı deyil"

Sözügedən məsələ ilə bağlı YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov bildirib ki, milliyyətcə erməni olan L.Yunus Avropa üçün lazımsız bir adamdır: "Avropa İttifaqı da başa düşür ki, Leyla Yunus yararlı deyil. Hətta onları saxlamaq baha başa gəlir. Bu baxımdan, ayrı-ayrı ölkələr hesabına bunlara yardım göstərirlər ki, orada yaşasınlar. Leyla Yunus iddia edir ki, Avropada filankəslə görüşdüm, bəhmənkəslə görüşdüm. Axı sən hansı səlahiyyətə maliksən, kimsən ki, səninlə görüşsünlər?!"

S.Novruzov bildirib ki, L.Yunus, həmişə olduğu kimi, bu gün də Azərbaycandakı keçmiş əməlləri ilə məşğul olmağa çalışır: "Əli Kərimli ilə əlbir olub insanlara saxta sənəd düzəldirdilər ki, guya kimlərsə siyasi baxışlarına görə saxlanılıb. Halbuki toyuq, ev oğurluğu və başqa cinayət əməllərinə görə həbs olunmuş adamların valideynlərindən pul alaraq onlara saxta sənəd düzəldirdilər. Elə bu yaxınlarda Xədicə İsmayıl da onları ifşa etdi. Özləri bir-birilərini ifşa edirlər. Leyla Yunusun indiyə qədər böhtan, yalan, şantaj, erməni xisləti, erməni mövqeyi - hamısı ortaya çıxıb. İctimaiyyətimiz Leyla Yunus kimilərinin yalanlarına inanmır".

### Zamiq Məmmədli Çexiyada 12 ildir ki, kirayədə yaşadığı halda, bunlar iki evi birdən aldılar - hansı üsulla?

Bunu da mən deyil, elə siyasi mühacir Z.Məmmədli deyib və apardığı araşdırmalarından sonra üzə çıxarıb. Bu baxımdan, onun sözlərinə inanmamaq da olmaz, çünki özü də 12 ildir Praqada yaşayır, ancaq kirayədə. O zaman belə bir sual yaranır: əcəba, necə olur ki, Z.Məmmədli 12 ildə Allahın birotaqlı mənzilini ala bilmədiyi halda, Yunuslar ailəsi ikisini birdən alıblar? Hansı pullara? Hansı gəlirlərlə? Birr də, belə olan halda, əlbəttə, burada düşünəcək və cavabı çətin veriləcək heç nə yoxdur. Vətənini, dövlətini və xalqın maraqlarını Azərbaycanı sevməyənlərə sat və istəyirsənsə, get Ayda da özünə kupçalı mənzil al!

Məhz bu və digər amillər Leyla və Arif Yunusların cinayət məsuliyyətinə cəlb edilmələrinə əsas verir. Onlar nə qədər qaçıb gizlənsələr də, nəyahətdə, ədalət məhkəməsi qarşısında otuzdurulacaqları şübhəsizdir.

Göründüyü kimi, daim Azərbaycan dövlətinə və xalqına qarşı qərəzli mövqe tutmuş Leyla Yunus və Arif Yunus əsl cinayətkar və xəyanətkardırlar. Onlar, heç bir halda, erməni lobbisinə işləməkdən çəkinməyəcək və daim anti-Azərbaycan mövqeyində duracaqlar.

Belə olan halda, Leyla Yunusun nəyinə etibar etmək olar? Əlbəttə ki, ortaya qoyulan faktlara baxsaq, heç nəyinə.

***R.HÜSEYNOVA***

# Düşərgədaşları Pənah Hüseynin dırnaqarası ideyalarını “topa” tutdu

## AXP sədri bir neçə müxalifət partiyasının “məngənəsində” sıxılıb-qaldı

***Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, illər öncəki siyasi kontekst baxışından, kənara çıxa bilmədiyini bir daha nümayiş etdirib. Daha dəqiq desək, məhz ölkəmizdə baş tutacaq hər hansı siyasi hadisə ərəfəsində üzə çıxmağa alışıq olan AXP sədri bu dəfə də eyni ənənəsinə sadiq qalıb və öz “məsləhətləri” ilə gündəmə çıxmağa cəhd edib. Lakin onun “məsləhətləri”, nəinki qulaqardına vurulub, hətta düşərgədaşları tərəfindən “topa” belə tutulub.***

Məsələ ondadır ki, P.Hüseyn müsahibələrinin birində müxalifətin mövcud vəziyyətindən bəhs edərkən, guya həmin vəziyyətdən çıxış yolu tapdığını bildirib və bir sıra təkliflər irəli sürüb. Misal üçün, AXP sədri müxalifətdə yeni Elçibəyin (???-R.R.) yaranmasına ehtiyacın olmadığını deyib və bu “kreativ” fikri ilə gündəmə çıxıb. İndi onu məsxərəyə qoyan müxalifətçilər soruşurlar ki, P.Hüseyn yenə hansı təcrübədən danışır? Çünki uzun illərdir ki, eyni blokda təmsil olunan ənənəvi müxalifət “liderləri”, ancaq bir-biri ilə mübarizə aparırlar. Belə ki, seçkilər zamanı dəfələrlə bu cür hadisələrin şahidi olmuşuq.



### Alternativ AXCP: “24 ildir eyni simalar, eyni vədlər, mitinqlər, pafoslu çıxışlar...”

Məsələn, Əli Kərimlinin AXCP-sinə alternativ olaraq yaradılan Xalq Cəbhəsi partiyasının sədr müavini Ehtiram Mehtiyevə görə, Azərbaycan müxalifətinin təcrübəsi xeyirdən çox ziyan verir. Bu baxımdan, P.Hüseynin fikirləri xülyadır və onun özü də daxil olmaqla, naftalin iyi verən “liderlər” siyasi səhnəni tərk etməlidirlər. Ənənəvi siyasətçiləri tarixin arxivinə göndərmək lazımdır: SİTAT: “Bu adamların cəmiyyətə xeyrindən çox ziyanı var. Ənənəvi müxalifətin təcrübəsi heç bir fayda verə bilməz. Baxın, 24 ildir eyni simalar, eyni vədlər, mitinqlər, pafoslu çıxışlar...”

Ağ Partiyanın sədri Tural Abbaslı da P.Hüseynin “ideyalarına” qıyqacı baxdığını deyib və sual edib ki, əgər təcrübə vardısa, niyə bu günə qədər effekt vermirdi? “Əslində, bu özünüqoruma instinktindən irəli gələn fikirdir”-deyə müxalifətçi bildirib.

### AMİP: “Müxalifəti parçalayan qüvvələrdən biri də, məhz Pənah Hüseyn olub”

AMİP tərəfdən də, AXP sədrinin dedikləri məsxərəyə qoyulub, üstəlik, ittiham da olunub. Partiyanın funksioneri Əli Orucova görə isə, müxalifəti parçalayanlardan biri də Pənah Hüseyndir. SİTAT: “...Hesab edirəm ki, ilk növbədə, bu yanaşma dəyişməlidir.Müxalifət birliklər, bloklar yaradaraq, seçkiyə getməkdən qaçmalıdır. Çünki bu üsul effekt vermir. Təəssüflər ki, hər dəfə eyni səhvlər təkrarlanır. Birliklər yaranır, sonra hər hansı bir məsələyə görə bir yerdə olan şəxslər bir-birinə qarşı kəskin fikirlər səsləndirirlər. Müxalifətin daxilində də birlik və bərabərlik yoxdur. Bir-birinə şübhə edən tərəflər var. Elə müxalifəti parçalayan qüvvələrdən biri də, məhz Pənah Hüseyn olub”.

Beləliklə, fakt ortadadır və bir daha sübut olunur ki, müxalifətdə istənilən “ideyalar” səmərəsiz və nəticəsizdir. O cümlədən, düşərgədə təmsil edilən bütün müxalifətçilərin sözləri bir-birinin həzm rabesindən keçmir. Bu dəfə isə hədəfə, məhz AXP sədri P.Hüseyn düşüb.

**R. RƏSULOV**

# Mehman Əliyev bolşeviklə müqayisə olundu -FOTOFAKT

## Elçin Mirzəbəyli: “Belə şeylər unudulmur. Necə ki, Cümhuriyyəti rus-bolşevik işğalçılarına satan Əliheydər Qarayevlər unudulmayıb”

***“Turan” İnformasiya Agentliyinin rəhbəri hazırda vergidən yayınmaya görə, istintaqa cəlb edilən Mehman Əliyevin müdafiəsinə qalxan bir sıra media nümayəndələrinə Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini, “Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli “facebook” sosial şəbəkəsindəki şəxsi səhifəsi vasitəsi ilə cavab verib. Hələ dörd il öncə, 2013-cü ilin prezident seçkiləri ərəfəsində müxalifətin radikal qanadı tərəfindən təsis edilmiş “Milli Şura”ya dəstək üçün M.Əliyev, bilavasitə Rusiya dövlətindən dəstək istəmişdi. Adıçəkilən qurumun üzvü olaraq, M.Əliyev Azərbaycanın milli-dövlətçilik maraqlarının ölkədən kənar siyasi qüvvələrə həvalə olunması istiqamətində məktub ünvanlayıb, Azərbaycanda “demokratiyanın”, “hüquqi dövlətin” qurulması üçün siyasi dəstək istəyib.***

### “Mən unutmamışam. Belə şeylər unudulmur”

“Dörd il öncə, avqustun 2-də Azərbaycandan Rusiya prezidentinə şanlı bir məktub ünvanlanmışdı”-deyə qeyd edən E.Mirzəbəyli yazır ki, başqa bir dövlətin başçısından Azərbaycanda keçiriləcək seçkilərlə bağlı dolayısıyla dəstək istənilmişdi. SİTAT: “...Ola bilsin ki, o məktubun altındakı imzanın müəllifini kimlərsə unudub, yaxud unutmaq və unutdurmaq istəyib. Amma mən unutmamışam. Belə şeylər unudulmur. Necə ki, Cümhuriyyəti rus-bolşevik işğalçılarına satan Əliheydər Qarayevlər unudulmayıb. Demək istədiyim odur ki, heç kimdən mələk düzəltmək lazım deyil”.

### “Eyni adam 4 il fərqlə necə “xəyanətkar” və “qəhrəman” olur, görəsən?”

BAXCP rəsmisi qeyd edib ki, o da, digərləri kimi, nə M.Əliyevin, nə də digərlərinin həbs olunmasının tərəfdarı deyil, lakin “Turan” İnformasiya Agentliyinin rəhbərindən mələk düzəltməyə də ehtiyac yoxdur: “Mən də sözügedən məktubun müəllifinin həbsdə olmasının tərəfdarı deyiləm. Amma 4 il öncə həmin məktuba görə, müəllifi haqlı olaraq, xəyanətdə suçlayanları və indi “azad media”nın müjdəçisi kimi qələmə verənləri də başa düşə bilmirəm. Bu mövqenin adı nədir? Eyni adam 4 il fərqlə necə “xəyanətkar” və “qəhrəman” olur, görəsən? Ədalətli olmaq və ədalətli olmağa çalışmaq...bunlar ayrı-ayrı şeylərdir. Mövqeyinizi və yerinizi müəyyənləşdirin, biz də işimizi bilək. Mənim üçün daha çox başqa bir dövlətin başçısından siyasi dəstək istəyən şəxs olan bu adamın isə tez bir zamanda azadlığa qovuşmasını arzulayıram”.

Göründüyü kimi, E.Mirzəbəyli bu məsələdə çox maraqlı məqamı xatırladıb və elə də uzaq olmayan dövrdə onun başqa bir dövlət rəhbərindən (?!-R.N.) siyasi umacaq umduğunu bildirib, eləcə də, həmin məktubun nüsxəsini fakt olaraq ictimailəşdirib. Bununla da, demək istəyib ki, əgər kimlərsə M.Əliyevi xalq hərəkatı dövründən “mübariz, əqidəli və vətənsevər insan” kimi təqdim edirlərsə, ortada olan məktubla həmin iddiaları müqayisə etsinlər və ədalət naminə haqlı mövqe nümayiş etdirsinlər.

**Rövşən NURƏDDİNOĞLU**





Президенту Российской Федерации
Господину Владимиру
Владимировичу Путину

Уважаемый господин Президент!

28 мая 2013 года в Азербайджане был учрежден Национальный Совет демократических сил, который ставит перед собой задачу конституционным путем через волеизлияние народа добиться победы на предстоящих в октябре выборах президента Азербайджанской Республики своего кандидата Рустама Ибрагимбекова. Господин Ибрагимбеков на учредительном съезде Национального Совета был избран его председателем, а затем выдвинут единым кандидатом от широкой коалиции институтов гражданского общества и представителей интеллигенции. Национальный Совет, который объединяет ведущие оппозиционные партии, НПО и отдельных общественных деятелей, намерен в результате победы своего кандидата путем прозрачных, справедливых выборах, провести при поддержке народа политические и экономические реформы в стране с целью создания такой государственной системы, в которой не будет места подавлению и ущемлению прав и свобод человека, коррупции и многим негативным проявлением постсоветского периода.

Именно с этой целью Рустам Ибрагимбеков, творчество которого объединяет сегодня многих людей по всему миру, в том числе в России и Азербайджане, избран той объединительной фигурой, которая способна привести к консенсусу интересы всех слоев и групп, независимо от их идеологических, национальных и религиозных воззрений. Осознавая это чаяние различных слоев азербайджанского общества, Рустам Ибрагимбеков откликнулся на исторический вызов и дал согласие баллотироваться кандидатом в президенты Азербайджана. В связи с этим, как и гражданин Российской Федерации, господин Ибрагимбеков обратился к Вам, Президенту РФ с просьбой о прекращении гражданства по своей инициативе.

Мы с уважением относимся к российскому законодательству и осознаем необходимость прохождения соответствующей юридической процедуры о прекращении гражданства. Но в связи с наличием небольшого отрезка времени, отделяющего нас от начала избирательной кампании – в конце второй декады августа, просим Вас ускорить процедуры прекращения российского гражданства Рустам Ибрагимбекова. Мы прекрасно понимаем, что Вам психологически трудно лишать гражданства лицо, которое сделало заметный вклад в развитие российской кинематографии и культуры, но мы также надеемся, что Вы поймете и нас в том, что миссия Ибрагимбекова, возложенная на него гражданским обществом Азербайджана, востребована азербайджанским народом, который стремится к созданию справедливого и правового государства.

Мы уверены, что Вам, как Главе государства близки эти чаяния, и мы желаем, чтобы они стали реальностью как в России, та и в Азербайджане.

**Азербайджан, г. Баку, 02 августа 2013 года**
**Мехман Алиев**
**Член Национального Совета демократических сил Азербайджана**

# Gömrük nəzarətindən gizlədilən mobil telefonlar müsadirə edilib



Gömrük nəzarətindən gizlədilən mobil telefonlar müsadirə edilib. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz Gömrük İdarəsinin “Sınıq Körpü” gömrük postunda Gürcüstandan ölkəmizə gələn Azərbaycan vətəndaşının idarə etdiyi “VAZ-21074” markalı avtomobilə gömrük baxışı keçirilib. Baxış zamanı, avtomobilin salonundakı ön oturacağın içindən 4 ədəd “Samsung J3-2016” markalı mobil telefon aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# İranda baş vermiş zəlzələ nəticəsində azı 8 nəfər yaralanıb

İranın Şərqi Azərbaycan əyalətinin Şərəbiyan mahalında 4,9 bal gücündə zəlzələ baş verib. AZƏRTAC Tehran Universitetinin Geofizika İnstitutunun Seysmoloji Mərkəzinə istinadla xəbər verir ki, yeraltı təkanlar yerli vaxtla saat 03:44-də baş verib. Episentri 6 kilometr dərinlikdə yerləşən zəlzələ bəzi evlərə ziyan vurub. Təbii fəlakət nəticəsində ən azı 8 nəfərin yaralandığı bildirilib. Təbriz şəhərindən 100 kilometr cənubda yerləşən Şərəbiyan mahalına axtarış-xilasetmə dəstələri cəlb edilib.

# Türkiyədə bir həftə ərzində 34 terrorçu məhv edilib

Türkiyədə son bir həftə ərzində terror təşkilatları ilə mübarizə çərçivəsində təhlükəsizlik qüvvələri tərəfindən 1094 əməliyyat təşkil olunub. Əməliyyatlarda 34 terrorçu məhv edilib. AZƏRTAC Anadolu Agentliyinə istinadla xəbər verir ki, əməliyyatlarda terrorçulara kömək etdikləri iddia olunan 127, o cümlədən İŞİD terror təşkilatı ilə əlaqəli olduqları güman edilən 44, FETÖ ilə mübarizə çərçivəsində 400 şübhəli şəxs həbs edilib. Həmçinin 585-i terror, 6-sı kiber təhlükəsizlik, 2258-i narkotik və qaçaqçılıq cinayətlərindən şübhəli bilinən 2849 nəfər tutulub.

Türkiyənin Bingöl, Hakkari və Diyarbəkir bölgələrində həyata keçirilən əməliyyatlarda terrorçular tərəfindən istifadə edilən doqquz sığınacaq, 351 kiloqram partlayıcı maddə, 32 qumbara, 3415 müxtəlif silah tapılıb.

# Müxalifətin çökməsi reallığa çevrilir

*Teyyub Qənioğlu: "Leyla və Arif Yunuslara, eləcə də Xədicə İsmayıla vətən xaini damğası vurulmalıdır"*



***Növbəti il keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ilə bağlı müxalifət düşərgəsində ciddi müzakirələr, hətta demək olar ki, hazırlıqlar gedir. Bəzi partiya funksionerləri, o cümlədən, AXP sədri Pənah Hüseyn yenidən müxalifətin birliyinə nail olmaq üçün partiya sədrləri ilə görüşlər keçirib. Ancaq düşərgə daxilində, ciddi ixtilafların kəskin xarakter aldığı bir məqamda, P.Hüseynin görüşlərinin nəticə verəcəyi inandırıcı görünmür. Təkamül partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirdi ki, AXP sədri Pənah Hüseyn yenidən müxalifətin birliyinə nail olmaq üçün müxalifət partiya sədrlərini bir araya gətirə bilməyəcək: "Çünki dəfələrlə müxalifətin birliyinə nail olmaq üçün cəhdlər olub, təşəbbüslər göstərilib, lakin sonda heç nə alınmayıb. Ola bilər ki, müxalifət partiya sədrləri müəyyən zaman kəsiyində bir araya gəlsinlər, hətta ümumi müxalifətin birliyinin yaradılması təklifi ilə çıxış etsinlər.***

Ancaq partiya sədrlərinin böyük iddiaları, təkəbbürü, birlik modelinin baş tutmasına imkan verməyəcək. Demək olar ki, müxalifət partiya sədrləri bu seçkilərlə bağlı vahid namizədi müəyyənləşdirə bilməyəcək. Bu baxımdan, növbəti seçkilərdə də xaricdən maddi və mənəvi dəstəyin olmasına baxmayaraq, müxalifət namizədi cüzi bir uğur əldə edə bilməyəcək.

"Artıq indidən müxalifət düşərgəsindən 6-7 partiya sədrinin prezidentliyə namizədliyinin irəli sürüləcəyi proqnozlaşdırılır. Sizcə, onlar bununla nə əldə etməyi düşünürlər" sualına cavab olaraq, partiya sədri bildirdi ki, sadəcə olaraq, bu müxalifət düşərgəsini təmsil edən həmin partiya sədrləri üçün bir fürsətdir ki, bu cür məsələlərlə gündəmə gəlsinlər: "Bununla onlar kimlərinsə diqqətini özlərinə cəlb edərək, öz varlıqlarını bildirmək istəyirlər. Çünki bu seçkilərdə heç nə əldə edə bilməyəcəklərini onların özləri də çox yaxşı bilirlər. Sadəcə olaraq, həmişə olduğu kimi, bu dəfə bu cür anormal hərəkətlərindən və mövqelərindən əl çəkmirlər".

"Əqidə dostlarının AXCP sədri Əli Kərimlidən üz döndərmələrinin səbəbi nədir" sualına cavab olaraq, T.Qənioğlu bildirdi ki, AXCP sədri Ə.Kərimli bilir ki, siyasi arenada hər hansı bir müvəffəqiyyət qazanmaq imkanı olmayacaq: "Ona görə də, ətrafında yeni-yeni məram və məqsədləri gerçəkləşməyən bir neçə gənci ətrafına toplamaqla, özünü göstərmək və müəyyən mənbələrdən maliyyə dəstəyi almağa cəhd göstərir və buna nail də olur. Amma Ə.Kərimli əldə etdiyi maliyyə vəsaitini ətrafında olanlarla paylaşmaq istəmir. Beləliklə də, Ə.Kərimlinin ətrafında cəmləşən həmin şəxslər onun maliyyə qaynaqlarından xəbərdardırlar. Yəni onlara pul çatmadığını görənlər, Ə.Kərimlinin ətrafından uzaqlaşırlar. Bu baxımdan, maliyyə əldə etmək üçün AXCP-yə gələn insanlardır".

"Siyasiləşmiş QHT-nin əsas aparıcı simalarından olan Leyla Yunus, Arif Yunus və Xədicə İsmayılın bir qədər də fəallaşdıqları müşahidə edilir. Bu fəallıq nədən qaynaqlanır" sualına cavab olaraq, T.Qənioğlu bildirdi ki, adları çəkilən şəxslərin hamısı xariclərin Azərbaycanda olan "beşinci kolon"unun ən qabaqcıl nümayəndələrindəndir: "İllər boyu həmin şəxslər xaricdən maliyyələşib, milli mənafeyimizə zidd fəaliyyət göstərirlər. Bir sözlə, Leyla Yunus, Arif Yunus və Xədicə İsmayıl kimi şəxslər vətən xaini damğası vurulmağa layiq insanlardır. Ümumiyyətlə, sən adını siyasətçi qoymusansa, millətin və dövlətin milli mənafeyinə zidd olan hərəkətlər etməməlisən. Əgər sən bunun edirsənsə, vətənpərvərlik haqqında düşünməyə dəyməz. Sadəcə olaraq, bu insanların bir adı var, o da satqınçılıqdır.

**GÜLYANƏ**

# Uğursuz müxalifətçilərin uğursuz "seçki ideyaları"



Son günlər radikal müxalifət düşərgəsində olan partiyaların 2018-ci ildə keçiriləcəyi gözlənilən prezident seçkiləri ilə bağlı "hazırlıq işlərinin aparılması", yaxud da bu istiqamətdə namizədlərin müəyyənləşdirilməsi ətrafında məntiqsiz və qeyri-ciddi təbliğatlar aparılması ilə bağlı ictimai rəy qarşısında, elə saxta görüntülər yaradılır ki, guya bu siyasi təşkilatların "liderləri", seçkilərdə uğur qazana biləcəklər.

**Müxalifətdə qalmaq, xarici ağaları tərəfindən atılan paylar müqabilində onların əmrlərinə nökərçilik etməkdir**

Bu, heç də təəccüb doğurmur. Çünki 24 ildən artıqdır ki, müxaifətdə qalaraq, naftalin iyi verən, yalnız öz şəxsi maraqları üçün bir-birləri ilə didişib-çarpışan, hər təhqirə gedərək, öz düşərgədaşlarına düşmən kəsilən siyasətbazların, əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də eyni acı aqibət yaşayacaqlarını xalq və ictimai-siyasi rəy yaxşı dərk edir. Məqsədləri müxalifətdə qalmaq və xarici ağaları tərəfindən atılan paylar müqabilində onların əmrlərinə nökərçilik etmək və imkan daxilində pay mənimsəməkdir.

Ümumiyyətlə, xalqın etimadını heç cür qazana bilməyən və fəaliyyətini qərəzli xarici dairələrin dağıdıcı maraqlarının təmin olunması missiyası üzərində quran radikal müxalifət son zamanlar Azərbaycanda xaos yaratmaq, təkmil struktur elementlərinə malik olan və möhkəm əsaslara söykənən siyasi sistemin sabitliyini sarsıtmaq üçün ən müxtəlif metodlara istinad edir və ölkədə antaqonist proseslərin əsasını qoymağa çalışır. Verdiyi bəyanatlarla insanları və ictimai şüuru manipulyasiyaya məruz qoymağa çalışan radikallar ümummilli mənafeyi, milli təhlükəsizliyi özlərinin və onları "himayə edən" mərkəzlərin maraqlarına qurban vermək üçün xüsusi canfəşanlıq edirlər. Daha dəqiq desək, radikal müxalifət qarşıdurma və dağıdıcılıq təbliğ etməklə məşğuldur.

Deyək ki, bu maraqların ödənilməsi ölkədəki ictimai-siyasi sabitliyi pozmaq, qarşıdurma və iğtişaşlar yaratmaqdır. Bununla bağlı, dəfələrlə cəhdlər də göstərilib. Amma reallıq ondan ibarətdir ki, xarici maraqlı qüvvələrin istək və arzuları müxalifət tərəfindən həyata keçirilə bilməyib. Çünki Azərbaycanda möhkəm əsaslara malik ictimai-siyasi sabitlik mövcuddur. Eyni zamanda, Azərbaycan xalqı dağıdıcı müxalif qüvvələri, ümumiyyətlə qəbul etmir. Bütün bunlar xarici maraqlı qüvvələrlə dağıdıcı müxalifət arasında qarşılıqlı inamsızlığın yaranmasına gətirib çıxarıb.

Beləliklə, radikal müxalifət cəbhəsində baş verənlər sözügedən düşərgənin təmsilçilərinin siyasi texnologiyalar nöqteyi-nəzərindən tükənmiş ünsürlər olduğunu bir daha təsdiqləyir. Siyasi sistemin autsayderinə çevrilən dağıdıcı düşərgə təmsilçiləri xalqın etimadını doğrultmadıqlarından, yenə də xarici qüvvələrə üz tuturlar. Hətta iş o yerə çatıb ki, radikal müxalifət bəzi xarici qüvvələrə müraciət edərək, seçkilər məsələsini müzakirə predmetinə çevirir, guya bu vasitə ilə hakimiyyətə gələcəklərinə özlərini "inandırırlar". Amma bu ünsürlər sadə bir gerçəkliyi dərk etmirlər ki, iqtidar olmaq - hakimiyyətə gəlmək üçün hansısa xarici dairələrdən yox, məhz xalqdan dəstək almaq lazımdır.

Politoloq Qabil Hüseynli müxalifətin bu hay-küyünün mənasız olduğunu, böhran içərisində yaşadığını, ancaq xarici ağaların əmrlərinə əməl etməklə məşğul olduqlarını bildirir: "Doğrudur, müxalifət ciddi siyasi böhran yaşayır. Bunun da əsas səbəbi xalqla aralarındakı körpülərin yandırılmasıdır. Əsas elektoral baza, demək olar ki, müxalifətdən kənar qalıb. Partiyalar öz qayğıları, onlar da öz qayğıları ilə baş-başadırlar. Bu baxımdan, müxalifətin təmərküzləşməsinə və yaxınlaşan seçkilər ərəfəsində ortaya güc qoyacaqlarına inanmıram".

**Rəfiqə HÜSEYNOVA**

# Diqqət: Rütubətli hava şəraiti bəzi insanlarda narahatlıq hissi yarada bilər

***Ölkə ərazisində avqustun 29-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz olacağı ehtimalı var. Cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 21-25º, gündüz 30-35º isti, Bakıda gecə 21-23º, gündüz 32-34º isti olacağı gözlənilir.***



Atmosfer təzyiqi normadan aşağı - 756 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 24-25°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26°, Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti təşkil edəcəyi ehtimalı var.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna əsasən, avqustun 31-dək Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün nisbətən əlverişli olsa da, havada ara-bir rütubətin bir qədər çox olması bəzi sakinlərdə narahatlıq hissi yarada bilər. Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz olacağı ehtimalı var. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 32-37° isti, dağlarda gecə 14-19°, gündüz 23-28° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 33-38° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 23-28° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 30-35° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 29-34° isti, dağlarda gecə 9-14°, gündüz 20-25° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 32-37° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-23°, gündüz 29-34° isti, dağlarda gecə 12-17°, gündüz 24-29° isti olacağı gözlənilir.

# Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasəti

***Azərbaycan Xalq Cümhuriyyəti öz daxili siyasətində demokratik, millətçilik və federalizm prinsiplərinə əsaslanırdı. ABŞ tarixçi- alimi Tadeuş Svyatoxovski bu prinsipləri belə səciyyələndirirdi: "İndi millətçilik, bu mənada götürülürdü ki, azərbaycanlılar böyük türk xalqları ailəsinin bir qolu olduqları kimi, öz millətlərinin varlığını da bildirirlər. İkinci prinsipə - federalizmə gəlincə, o, kiçik bir millətin təhlükəsizliyinə nail olmaq üçün bir təlimat kimi hökumətin proqramlarında və siyasətlə bağlı bəyannamələrində daimi element idi. Lakin kiminlə federasiyaya daxil olmaq məsələsi hələ də açıq qalırdı. Qonşu millətlərlə ixtilaflar yoluna qoyulmayınca, Zaqafqaziya federalizminin real gələcəyi yox idi. Sonralar, müstəqillik qazanıldıqdan sonrakı illərdə, AXC ancaq tərəfdaşlarla - yalnız Zaqafqaziya qonşuları ilə deyil, eyni zamanda İran, Türkiyə, Rusiya ilə, hətta ağlarla, qırmızılarla qeyd-şərtsiz ittifaqa girməyə hazır olduğuna görə tənqid olunacaq. Qəbul etdirilmiş Britaniya sülhü dövründə ayrı-ayrı sahələrdə diqqətəlayiq nailiyyətlər qazanmış Bakı koalisiya rejimi qüvvə və bacarığını hökumət işlərinə yönəltmək iqtidarında idi.***

Azərbaycan Respublikası gözlənilmədən sıçrayışla müstəqilliyə çatmış müstəmləkə ölkəsinin bariz nümunəsi oldu. Yerli dövlətçilik təcrübəsi olmadığından, Azərbaycan Respublikası rəhbərləri müstəqillikdən qabaqkı inzibati maşının vəziyyətə uyğunlaşdırılması yolunu tutdular. Yeni dövlətçiliyin bünövrəsinin qurulmasında, ən böyük çətinlik təsis qurumlarının təzələnməsi deyil, bu qurumların təmin edilməsi üçün kadrların olmaması idi. İxtisaslı azərbaycanlılar hökumət bürokratiyasında ancaq bir sıra vəzifələri tuta bildiklərindən, dəmiryol fəhləliyi, teleqraf operatorluğu və makinaçılıqdan tutmuş bütün növ ixtisaslar üzrə kadr hazırlamaq üçün təcili proqramlar tətbiq olunmağa başlandı. Orta və aşağı vəzifələrdə çalışan rus mülki qulluqçuları öz yerlərində qaldılar; bütün dövlət qulluqçularına yerli dili öyrənmək üçün iki il vaxt verildiyinə baxmayaraq, həmin qulluqçulara rəsmi kargüzarlığı, hətta rus dilində aparmağa icazə verilirdi".

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşu parlamentli respublika idi. AXC daxili siyasətində aşağıdakı sahələrin yaranmasını təşkil etdi:

Azərbaycanın daxili işlər və milli təhlükəsizlik orqanları yaradıldı;

*Milli Şura hökuməti funksiyasını yerinə yetirdi;

*Azərbaycanda fövqəladə vəziyyət elan edildi;

*Azərbaycan təbəəliyi haqqında qərar qəbul edildi;

*Müəssislər Məclisinə seçkilər keçirmək üçün komissiya yaradıldı;

*Azərbaycan milli ordu quruculuğuna başlandı.

Hərbi quruculuq sahəsində Azərbaycanın vəziyyəti Gürcüstan və Ermənistana nisbətən pis idi. Çarizm digər müsəlman xalqları kimi azərbaycanlılara da etimadsızlıqla yanaşdığından, onları hərbi xidmətə çağırmırdı.

Buna görə azərbaycanlıların əksəri hərbi işi bilmirdi. 1917-ci ilin fevralından sonra Müvəqqəti Hökumət Azərbaycana öz Milli Ordusunu yaratmağa razılıq vermədi.

Oktyabrdan sonra Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası Petroqraddan köçürülən "vəhşi diviziyanın" tatar süvari alayının əsasında müsəlman korpusu təşkil etdi. General Əliağa Şıxlinski ümumi komandanlığı öz üzərinə götürdü.

Yeni yaranmış respublikanın ilk günlərində 600 nəfərlik könüllülərdən ibarət hərbi hissəsi vardı. Azərbaycan Ordusunun təşkilini sürətləndirmək məqsədilə Türkiyədən hərbi müşavirlər dəvət edildi. Müsəlman korpusu "Əlahiddə Azərbaycan korpusu" adlandırıldı. Zabit kadrları hazırlamaq üçün qısamüddətli kurslar təşkil olundu.

1918-ci ilin avqustunda hökumət 19 yaşı tamam olmuş şəxslərin hərbi qulluğa çağırılması barədə Fərman elan etdi. Dekabrın 25-də general Səmədağa Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sulkeviç Azərbaycan Ordusunun baş qərargah rəisi təyin edildilər. Şimalda Denikin təhlükəsinin güclənməsilə əlaqədar 1919-cu il iyulun 11-də Azərbaycanda ikinci dəfə hərbi vəziyyət elan edildi. Dövlət Müdafiə Komitəsi təşkil olundu. İyunun 16-da Gürcüstanla Denikin təcavüzünə qarşı müdafiə paktı bağlandı. Müqaviləyə uyğun olaraq, Gürcüstan Azərbaycana əvəzi neft və neft məhsulları ilə ödənilmək şərti ilə xeyli silah və hərbi ləvazimat verdi.

ABŞ alimi T.Svyatoxovski milli ordu quruculuğu sahəsində Azərbaycanın qarşılaşdığı çətinliklərdən bəhs edərək yazır: "Azərbaycan, nəinki yerli dövlətçilik, hətta hərbi xidmət ənənəsinə də malik deyildi. Rusiya müsəlmanları hərbi xidmətdən kənar olunmuşdular. Zaqafqaziyanın hələ də tənzimlənmiş vəziyyətində azərbaycanlılar xristian qonşularının yaxşı təlim görmüş və döyüş sınaqlarından çıxmış qüvvələri qarşısında açıq-aşkar aciz vəziyyətdə qaldıqlarına görə, milli ordunun yaradılması bir zərurət kimi ortaya çıxdı. Müsəlman milli korpusunun nizami və döyüşkən qüvvələrə çevrilməsi ciddi şəkildə, ancaq türklərin gəlişindən sonra başlandı. Onlar azərbaycanlı zabit və hərbi mütəxəssislərin hazırlanması işinə kömək etdilər. Parlament rejimi vaxtı hərbi nazirliyin işini əvvəllər rus ordusunda artilleriya generalı olmuş Səməd bəy Mehmandarov aparırdı. Onun əsas köməkçiləri general Əliağa Şıxlinski və general Süleyman Sulkeviç idi. Sonuncu litvalı "tatar" olub, Krımda alman inzibatçılığını həyata keçirmiş və sonralar baş komandan kimi Azərbaycan Ordusuna qoşulmuşdu.

Zabit kadrları türklər, eləcə də, keçmiş çar ordusundan qalan ruslar və gürcülərdən ibarət idi. Türklərdən çox, ruslar Azərbaycan hərbi sisteminin taleyini həll edirdilər. Təşkilat quruluşu və qayda-qanunların hamısı eynilə II Nikolay dövründəki rus modelindən götürülmüşdü.

Keçmiş qeyri-nizami dəstələri, yeni çağırışçıları və çar rejimi dövründə hərbi xidmət keçmiş, o qədər də böyük olmayan azərbaycanlılar qrupunu bir yerə yığmaqla, Azərbaycan Ordusu təqribən 35000 nəfərdən ibarət hərbi qüvvəyə çevrildi. İki piyada və bir süvari diviziyaları təşkil olunmaqla, bu orduya, həmçinin iki artilleriya briqadası, zabit və mütəxəssislər hazırlayan məktəblər və əlavə xidmətlər də daxil edildi. Zəruri təchizatı İtaliyadan almaqla, silahlı qüvvələrin sayını 50000-ə qədər artırmaq planları hazırlanmışdı.

Azərbaycan tədqiqatçısı Tofiq Mustafazadə "Ümumi tarix" kitabında AXC-nin daxili siyasəti haqqında yazır: "Gənc Azərbaycan Ordusu 1919-cu ildə Zəngəzura soxulmuş erməni quldur dəstələrini dəf etməklə və Muğandakı (rusların - V.Ö.) qiyamı yatırmaqla ilk hərbi sınaqlardan çıxdı. Əsgəran döyüşü, xüsusilə uğurlu oldu. 1920-ci ilin martında Novruz bayramı gecəsi ermənilər qiyam qaldıraraq, Əsgəran keçidini tutmuşdular. Qiyamçılara Ermənistandan göndərilən nizami ordu kömək edirdi. Ermənilər Əsgəranı tutmaqla Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq istəyirdilər. Həbib Səlimovun başçılıq etdiyi qoşun hissəsi 1920-ci il aprelin 3-də səhər tezdən hücuma keçib, Əsgəranı azad etdi. Ertəsi günü Şuşa da ermənilərdən təmizləndi.

1920-ci ilin yanvarına kimi 40 minlik nizami ordu hazırlandı və bununla da, ordunun yaradılması prosesi, əsasən, başa çatdırıldı. İtaliyadan və digər xarici ölkələrdən xeyli silah və hərbi sursat alınmışdı.

Azərbaycan Xəzər Donanmasının yaradılması denikinçilərin kəskin etirazına səbəb oldu. Onlar 1828-ci il Türkmənçay Müqaviləsinə istinad edib, bildirirdilər ki, Xəzər dənzində yalnız Rusiya və İran ticarət donanması, Rusiya isə hərbi donanma saxlaya bilər. Azərbaycan hökuməti bu əsassız etirazı rədd edərək bildirdi ki, Rusiya və İran arasında imzalanmış müqavilə yalnız Rusiya və İran üçün məcburi ola bilər, bu, yeni dövlətlərə aid deyildir. 1919-cu ilin axırları və 1920-ci illərin əvvəllərində hərbi nazirlik donanma yaratmaq sahəsində xeyli iş görmüşdü. Bir neçə hərbi gəmi və sualtı qayıq Xəzərdə respublikanın su sərhədlərini qoruyurdu". AXC-nin hərbi xərcləri Azərbaycanın dövlət büdcəsinin dörddə birini təşkil edirdi. Ulu Öndər Heydər Əliyev milli bayram - Respublika Günü münasibətilə bayramdakı çıxışında demişdir: "AXC-nin Azərbaycan xalqının həyatında, tarixində oynadığı böyük rola öz hörmət və ehtiramımızı bildiririk".

Dahi şəxsiyyət daha sonra inam və qətiyyətlə deyirdi: "Azərbaycanın bu gün müstəqil yaşaması üçün o illər böyük əsas yaratmışdır. Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir, Azərbaycanda iqtisadi, sənaye potensialı yaranmışdır. Azərbaycanda yeni şəhərlər yaranmış, kəndlər, qəsəbələr abadlaşmış, insanların rifah halı yaxşılaşmışdır. Bunlar hamısı tariximizin həqiqətləridir. Bunlar hamısı bizimdir, Azərbaycanındır. Çoxəsrlik tariximiz də bizimdir, doğma sərvətimizdir.

1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti də bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, elmi, intellektual, həm də mədəni potensialını yaradıbdır. Biz bu gün, bu milli bayramı - Respublika Gününü qeyd edərkən, XX əsrdə xalqımızı irəliyə aparmış, elmimizi, mədəniyyətimizi, iqtisadiyyatımızı inkişaf etdirmiş insanların hamısını böyük hörmət və ehtiram ilə, minnətdarlıqla yad edirik".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

**Son səhifə** **29 avqust**

## Zoğal ağacının hikməti və meyvələrinin tibbi əhəmiyyəti

Yazın nəfəsi duyulan kimi ağaclar içərisində ilkin çiçəkləyən zoğal olur. Ona görə də zoğal ağacına el arasında "şeytanaldadan" da deyirlər. AZƏRTAC xəbər verir ki, zoğal bütün çiçəklərdən tez açsa da, onun bar verme vaxtı avqustun isti vaxtına düşür. Onun meyvələrindən həm ağız büzüşdürəni, turşməzəsi, həm də şirini olur.



Qədim yunan salnaməçisi və coğrafiyaçısı Strabonun yazdığına görə məşhur bir loğman soyuq payız günü Qanıx (Alazan) çayının sahilində oturub çayda çimən uşaqlara tamaşa edirmiş. Suya baş vurub çimən uşaqların soyuqlayıb xəstələnəcəyindən narahat olan loğman görür ki, uşaqlar çaydan çıxıb kənardakı zoğal ağacına dırmaşaraq, meyvələri dərib yeməyə başladılar. Loğman öz-özünə fikirləşir ki, dərdi və dərmanını bildiyinə görə böyük xalqdır. Soyuqdəyməni aradan götürən vasitə kimi zoğal xalq təbabətində indiyə kimi istifadə olunur.

Digər rəvayət Şah İsmayıl Xətai ilə bağlıdır. Deyilənə görə, İsmayıl balaca olanda onu Ağqoyunlu dövlətinin adamlarından yayındırmaq üçün zoğal çubuqlarından hörülmüş cəvərənə qoyub ağacın başında gizlədiblər. İsa peyğəmbərin də zoğal ağacında çarmıxa çəkildiyi deyilir. Məşhur xristian əfsanəsinə görə, həmin hadisədən sonra ağacın boyu kiçilərək indiki formaya düşüb.

Zoğal mürəbbəsi ilə çay içmək orqanizmdən soyuqdəyməni qovub çıxarır.

Zoğaldan hazırlanan axta və turşu müxtəlif xörəklərə tökülərək ona dad verir. Onu hazırlamaq üçün zoğal dənədən çıxarılandan sonra tənəkənin üstündə açıq havada qurumağa qoyulur, quruyandan sonra duzlu suya çəkilərək yığılıb qışa saxlanır. Qurumuş zoğal dənəsini həvəngdəstədə döyüb toz halına salandan sonra onu çaya töküb qarnı ağrıyan uşağa verirlər. Zoğal lavaşı isladılandan sonra boğazı gələn xəstəyə verilir, diş ağrısı zamanı onu ağrıyan nahiyəyə sürtmək də faydalıdır. Zoğal şirəsi və mürəbbəsi soyuqdəymə, qızdırma, titrətmə və üşütmə zamanı ən yaxşı təbii vasitə hesab olunur.

Vitamin C ehtiyatına görə zoğal qara qarağatın giləmeyvələrindən daha üstündür. Onun tərkibində şəkər, üzvi turşular, vitaminlər, fitonsidlər, aşı maddələri və s. mövcuddur. Qabığında yalnız ona məxsus olan komin qlikozidi var. Sidik-ifrazat sistemi, revmatizm xəstəlikləri, bağırsaq pozulmaları və vərəm zamanı zoğal yemək çox faydalıdır. Zoğal orqanizmə ümumi tonuslandırıcı və möhkəmləndirici təsir göstəriş ABŞ-da zoğalın qabıq və kökü malyariyanın müalicəsində tətbiq edilir. Rus xalq təbabətində zoğalın təzə dəmlənmiş meyvələrindən qanazlığı, dəri xəstəlikləri, podaqra və oynaq xəstəliklərində, mübadilə pozulmalarında, qabığından isə qızdırma əleyhinə istifadə olunur. Zoğal həm də büzücü və sinqa əleyhinə təsirlərə də malikdir.

## Azərbaycan taekvandoçusu dünya birinciliyini medalla başa vurub

Misir Ərəb Respublikasının Şarm Əl-Şeyx şəhərində keçirilən yeniyetmə taekvandoçular arasında dünya birinciliyi yekunlaşıb. AZƏRTAC xəbər verir ki, baş məşqçi Səbuhi Zülfüqarov və böyük məşqçi Sənan Həşimovun rəhbərlik etdiyi Azərbaycan yığması yarışı bir medalla başa vurub. Komandamızın heyətində 37 kiloqram çəki dərəcəsində mübarizə aparan Riyad Şirəliyev fəxri kürsüyə yüksəlib. Yarımfinaladək irəliləyən idmançımız bu mərhələdə məğlub olaraq mundialda bürünc medalla kifayətlənib.

## Dünya çempionatında 1 qızıl, 2 bürünc medal qazanan Azərbaycan güləşçiləri Vətənə qayıdıblar



Fransanın paytaxtı Parisdə keçirilən böyüklər arasında dünya çempionatında uğurla çıxış edərək bir qızıl və iki bürünc medal qazanmış güləş üzrə Azərbaycan yığmasının üzvləri avqustun 27-də Vətənə qayıdıblar.

AZƏRTAC xəbər verir ki, mundialda Azərbaycan idmançısı dünya çempionu, Olimpiya Oyunlarının bürünc medalçısı, sərbəst güləş yarışlarında 61 kiloqram çəkidə mübarizə aparan Hacı Əliyev bütün rəqiblərinə tam üstünlüklə qalib gələrək qızıl medal əldə edib və fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, eyni zamanda Azərbaycan sərbəst güləş tarixində ilk üçqat dünya çempionu adını qazanıb. 97 kiloqram çəkidə yarışan digər sərbəst güləşçimiz Aslanbek Alborov ilk dəfə qatıldığı böyüklər arasında dünya çempionatını bürünc medalla başa vurub. Yunan-Roma güləşçilərindən 80 kiloqram çəkidə mübarizə aparan Elvin Mürsəliyev çempionatda üçüncü sırada qərarlaşıb.

Sərbəst güləşçilərimizdən Cəbrayıl Həsənov (74 kq) və Aleksandr Qostiyev (86 kq), eləcə də yunan-Roma güləşçilərimizdən ilk dəfə böyüklər arasında dünya çempionatına qatılan İslam Abbasov (85 kq) yarışı beşinci sırada tamamlayıblar. Yığma komandamızın güləşçilərini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Güləş Federasiyasının nümayəndələri, idmançıların yaxınları və media təmsilçiləri qarşılayıblar. Qarşılanma mərasimində millimizin məşqçiləri və idmançılar jurnalistlərin suallarını cavablandırıblar.

Sərbəst güləş üzrə yığma komandamızın baş məşqçisi Firdovsi Umudov deyib ki, bu qələbə dövlətimizin, bütövlükdə bütün xalqımızın qələbəsidir. Dünya çempionatında yarışlar gərgin mübarizə şəraitində keçdi. Buna baxmayaraq güləşçilərimiz əzmlə sonadək mübarizə apardılar və uğurlu nəticələr qazandılar. Yüksək nəticələr dövlət başçısının ölkəmizdə idmana və idmançılara göstərdiyi diqqət və qayğı sayəsində əldə edilib. Məşqçi yaradılan şəraitə görə Gənclər və İdman Nazirliyinə, Azərbaycan Güləş Federasiyasının rəhbərliyinə təşəkkürünü bildirib.

Üçüncü dəfə dünya çempionu olduğu üçün sevincinin həddi-hüdudu olmadığını deyən dünya çempionumuz Hacı Əliyev bildirib ki, ilk dəfə bu ada 2014-cü ildə, ikinci dəfə isə 2015-ci ildə layiq görülüb. O deyib: "Bu qələbə əməyi olan hər kəsə, bizi dəstəkləyən güləşsevərlərə təşəkkürümü bildirirəm. Üçüncü dəfə dünya çempionu olmağımda məşqçilərimin, ailəmin də böyük əziyyəti olub. Növbəti hədəfim 2020-ci ildə Olimpiya çempionu olmaqdır. Çalışacağam ki, növbəti yarışlarda da uğurlu nəticələr göstərim".




## Ramil Quliyev Berlində ikinci olub

Türkiyə atletika tarixinin ilk dünya çempionu olan azərbaycanlı Ramil Quliyev Berlində keçirilən ISTAF oyunlarında gümüş medal qazanıb. Anadolu agentliyinin məlumatına görə, yüngül atlet kişilər arasında 100 metr məsafəyə qaçış üzrə yarışı 10.09 saniyəlik nəticə ilə ikinci sırada tamamlayıb. Yarışmanı yamaykalı Julian Forte (9.91) qazanıb. Böyük britaniyalı Adam Gemili isə 10.10 saniyəlik nəticə ilə 3-cü olub.

## Norveç millisinin baş məşqçisi: "Azərbaycan indi daha güclüdür"

"Müdafiə xəttində bəzi dəyişikliklər edirik. Meydanda daha aqressiv olmalıyıq". Qol.az-ın məlumatına görə, bu sözləri DÇ-2018-in seçmə mərhələsində millimizin rəqibi olan Norveç yığmasının baş məşqçisi Lars Laqerbek deyib. Yerli mətbuata açıqlamasında sentyabrın 1-də millimizlə keçiriləcək oyun haqda danışan 69 yaşlı mütəxəssis komandamızda müəyyən dəyişikliklər olduğunu bildirib: "Azərbaycan millisi əvvəllər əsasən müdafiədən oynayırdı. İndi rəqibimiz daha güclüdür. Yarımmüdafiə xəttində braziliyalı futbolçu çıxış edir. Onların bizi təəccübləndirəcəyini düşünmürəm. Ancaq futbolçularımı bütün vəziyyətlərə hazırlayacam. Hədəfimiz qələbədir. Nə qədər çox qalib gəlsək, o qədər güclü olarıq".

## ELAN

Bakı şəhəri, Nərimanov rayonu, Faiq Yusifov küçəsi, ev 26, mənzil 7 ünvanında yaşayan Əliyev Akif İspəndiyar oğluna Dövlət Reyestr Xidməti tərəfindən verilmiş reyestr nömrəli 00701 100 1450-05 101-093005 olan Daşınmaz Əmlakın Texniki Pasportu (mənzilin) itdiyi üçün etibarsız sayılır.

* * *

Səbail rayon Hərbi Komissarlığı tərəfindən 10.09.1999-cu ildə verilmiş Qarabağ veteranı vəsiqəsi (№ 033372) itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.
Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**